*Həqiqət Kərimova*

# Xəlil Rza Ulutürkün fəlsəfi görüşləri

19243
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı-Gənclik-2002

**Redaktoru:** Firəngiz Ulutürk
**Elmi redaktoru:** Qoşqar Əliyev,
fəlsəfə elmləri doktoru
**Rəyçi:** Maqsud Cəlilov,
fəlsəfə elmləri doktoru, professor.

***Həqiqət Kərimova."Xəlil Rza Ulutürkün fəlsəfi görüşləri" Bakı, "Gənclik" -2002. 100 səhifə.***

*Oxuculara təqdim olunan "Xəlil Rza Ulutürkün fəlsəfi görüşləri" kitabı fəlsəfə elmləri namizədi, dosent Həqiqət Kərimovanın şairin anadan olmasının 70 illiyinə töhfəsidir. Kitabda şairin türkçülük məfkurəsi, "milli mən" fəlsəfəsi ilə bağlı düşüncələri, dilçilik məsələsi bütövlükdə Xəlil Rzanın poetik düşüncələri ilə fəlsəfi fikrin konsentrasiyası məsələləri şərh edilmişdir. Fəlsəfi təhlil mətni kimi kitab filosoflar, filoloqlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**K $\frac{0301020000}{M653(07)2002}$ qrifli nəşr**

**ISBN 5-8020-1635-3**

© **Həqiqət Kərimova, 2002**



**X**əlil Rza! Özü məşəl misraları yanan köz,
**Ə**lindəki qələmindən alov saçdı qopan söz.
**L**əyaqəti, dəyanəti qalxan oldu yoluna,
**İ**mperiya satqınları buxov vurdu qoluna.
**L**akin sözə, azadlığa qandal vurmaq əbəsdir,

**R**əzalətə əsir olan elə özü xəbisdir!
**Z**aman dayan! Qulağımda zəncirlərin səsi var,
**A**zərbaycan ayağa qalx! Ölməz Xəlil Rzalar!

**U**nudulmaz o günlərin ağrıları, acısı,
**L**əyaqətli insanlardır, azadlığın carçısı.
**U**lutürkdür zəncirləri zərrə-zərrə qoparan,
**T**ürk oğludur, boz qurdunun öygüsüylə hayqıran.
**Ü**rəyində günəş nuru, damarında türk qanı,
**R**əqiblərə meydan deyən söz qılıncı qalxanı,
**K**ülli türkün Xəlilidir, azadlığın xaqanı.

*Xəlil Rza Ulutürk 1932-ci il oktyabrın 21-də Səlyan qəzasının Pirəbbə kəndində anadan olmuşdur. Kiçik yaşlarından şerə, poeziyaya qəlbən bağlanmış, 1948-ci ildə 16 yaşında ikən "Kitab" adlı ilk şeri "Azərbaycan pioneri" qəzetində dərc edilmişdi. Bu məhəbbət onu Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə gətirib çıxartmış, 1949-1954-cü illərdə həmin fakültənin jurnalistika şöbəsində təhsil almışdır. 1954-cü ildə SSRİ Yazıçılar İttifaqının üzvü olmuş, 1955-1957-ci illərdə "Azərbaycan qadını" dərgisi redaksiyasında əməkdaşlıq etmişdir.*

*1957-1959-cu illərdə Moskvada Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutu nəzdində yazıçılar üçün açılmış iki illik Ali Ədəbiyyat kurslarının dinləyicisi olmuşdur. 1963-cü ildə Xəlil Rza "Müharibədən sonrakı Azərbaycan Sovet ədəbiyyatında poema janrı (1945-1950)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, indiki N.Tusi adına Pedaqoji Universitetdə dosentvəzifəsində çalışmışmaqla bərabər, bədii yaradıcılıqla da məşğul olmuşdur. Şairin "Bahar gəlir" (Bakı, 1957), "Bəhrəli gün" (Moskva, 1959), "Sevən gözlər" (Bakı, 1959), "Məhəbbət dastanı" (Bakı, 1961), "Məhəbbət haqqında poema" (Moskva, 1961. /Rus dilində/), "Mənim günəşim" (Bakı, 1963) kimi rəngarəng*





*əsərləri oxucuların böyük rəğbətini qazanmışdır.*

*1967-ci ildə Xəlil Rzanın Azərbaycan yazıçıları tərkibində Türkiyəyə getməsi şairin türkçülük məfkurəsinin formalaşmasının əsasını qoymuşdur.*

*1969-cu ildən 1994-cü ilə kimi Xəlil Rza Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda çalışmış, bu dövr ərzində böyük yaradıcılıq yolu keçmişdir. "Qollarını geniş aç" (Bakı, 1965), "Krasnodan qartalları" (Bakı, 1967), "Ucalıq" (Bakı, 1973), "Doğmalıq" (Bakı, 1977), "Taparam səni" (Bakı, 1980), "Marallar da duz yeyərmiş" (Bakı, 1981), "Ömürdən uzun gecələr" (Bakı, 1982), "Hara gedir bu dünya" (Bakı, 1983) kimi müxtəlif səpgili əsərləri işıq üzü görmüşdür.*

*1985-ci ildə "M.Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan-Özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda dissertasiya müdafiə etmiş, filologiya elmləri doktoru adını almışdır.*

*1986-cı ildə "Azərbaycanın Əməkdar İncəsənət Xadimi" adına, 1990-cı ildə "Davam edir-37" şerinə görə M.F.Axundov mükafatı laureatı adına layiq görülmüşdür. Elə həmin il yanvar ayının 26-da Çağdaş Azərbaycan Milli Hərəkatının fəal xadimi kimi Bakını işğal etmiş rus hərbçiləri tərəfindən həbs olunmuş, Bakı, Moskva, Rostov, Voronej zindanlarında 8 ay 13 gün dustaq edilmişdir.*

*1991-ci ildə Azərbaycan Ali Sovetinə seçkilərdə iştirak etmiş, əvvəlcə 79, sonra isə 87 faiz səs çoxluğu ilə millət vəkili seçilsə də, "kvorum yoxdur" bəhanəsi ilə seçkidən kənarlaşdırılmışdır.*

*1992-ci ildə Xəlil Rza Ulutürk Azərbaycan Respublikasının "Xalq şairi" fəxri adına layiq görülmüşdür. Şairin "Daşdan çıxan bulaq" (Bakı, 1986), "Məndən başlanır vətən" (Bakı, 1988), "Davam edir-37" (Bakı, 1932), "Ayla Günəş arasında" (Bakı, 1992), "Uzun sürən gənclik" (Bakı, 1994), "Mən Şərqəm" (Bakı, 1994) kimi əsərləri Azərbaycanda ictimai-siaysi vəziyyətin son dərəcə mürəkkəb olduğu bir dövrə təsadüf etmişdir.*

*1994-cü il iyun ayının 22-də Xəlil Rza Ulutürk vəfat etmişdir. 1995-ci ildə ölümündən sonra "İstiqlal" ordeni ilə təltif edilmişdir.*

*Xəlil Rza Ulutürkün ədəbi irsi onun ömür-gün yoldaşı Firəngiz xanım Ulutürk tərəfindən qorunub saxlanmış və o, şairin çap olunmamış şerlərini tərtib edərək bir-birinin ardınca nəşr etdirməyə müvəffəq olmuşdur.*

*"Bağışla ey vətən" (Bakı, 1995), "Lefortovo zindanı" (Bakı, 1988), "Xəlil Rza Ulutürk "Azadlıq" (Ankara, 1988), "Xəlil Rza Ulutürk Sabir Rüstəmxanlı haqqında" (Bakı, 1988), "Uzun sürən gənclik" (Bakı, 1998), "İlk Allahım, son Allahım mübarizə" (Bakı,*





*1999), "Xəlil Rza Ulutürk ustad Bəxtiyar Vahabzadə haqqında" (Bakı, 1999), "Xəlil Rza Ulutürk Rəfiq Zəka Xəndan haqqında" (Bakı, 1999), "Türkün dastanı" (Bakı, 2000), "Xəlil Rza, Rəsul Rza həsrəti" (Bakı, 2001) adlı əsərləri Firəngiz xanım Ulutürk tərəfindən böyük şairin arxivindən götürülüb xalqımıza çatdırılan ölməz əsərləridir.*

*Şairin tərcümə sahəsində də böyük xidmətləri olmuş, A.Laptevin "Balacalar" (Bakı, 1972), "İlya Selvinskinin "Babək"" (Bakı, 1975), Musa Cəlilin "Moabit dəftəri" (Bakı, 1979), "Qardaşlıq çələngi" (Bakı, 1982), "Dünyaya pəncərə" (Bakı, 1984), Robert Rojdestvenskinin "Otuzuncu əsrə məktub" (Bakı, 1984), N.Gəncəvinin "Sirlər xəzinəsi"-Lirikası" (Bakı, 1988), "Yeddi gözəl" (Bakı, 2000), "Turan çələngi" (Bakı, 1993), Yusif Balasaqunlunun "Qutadqu-bilik" (Bakı, 1994), "İsgəndərnamə" (Bakı, 2002) əsərlərini ana dilimizə çevirmişdir. Xəlil Rzanın şerlərinə Ramiz Mustafayev, Hökümə Nəcəfova, Faiq Sücəddinov, Cavanşir Quliyev, Hacıbaba Həsənov, Emin Sabitoğlu musiqi bəstələmiş, qələm dostları şairə onun xatirəsini əbədiləşdirən əsərlər həsr etmişdir.*

# Ön söz

2001-ci ilin noyabr ayı idi. Həqiqət xanımla növbəti görüşüm zamanı o, Xəlil Rza ilə bağlı mənə xeyli sual verdi. Onunla necə tanış olduğumu, çətinliklərə sinə gərib necə ailə həyatı qurmağımızı bütün təfsilatı ilə danışdım. Məni son dərəcə diqqət və maraqla dinləyirdi. Sonra fikirli-fikirli gülümsəyib Xəlil Rzanın fəlsəfi dünyagörüşünü əks etdirən kitab üzərində işlədiyini bildirdi. Nədənsə çox kövrəldim, gözlərim doldu. Maraq məni götürmüşdü. Necə olmuşdu ki, Həqiqət xanım Xəlilin fəlsəfi şerlərini təhlil etmək fikrinə düşmüşdü? Doğrusu, Xəlil haqqında nə sual versə cavab verməyə hazır idim. Təqribən iki ay sonra mən "Ziyalı" qəzetinin növbəti sayında yazıçı Əlibala Hacızadənin təqdimatı ilə rastlaşdım. O, Həqiqət xanımın iki fəlsəfi əsərinin çapa hazırlandığı haqqında məlumat vermiş, bu əsərlərdən birinin Xəlil Rza Ulutürkə, digərinin isə Azərbaycanın ilk riyaziyyatçı filosofu, fəlsəfə elmləri doktoru, professor Maarif Əkbərova aid olduğunu qeyd etmişdi. Təqdimatın altında Xəlilin iri şəkli, şəklin üstündə "Xəlil Rza poeziyası ilə fəlsəfi fikrin konsentrasiyası" adlı başlıq yazılmış, baş hərfləri "Xəlil Rza Ulutürk" oxunan şeri verilmişdir. Şer çox xoşuma gəldi. Zəng vurub ona öz minnətdarlığımı bildirdim və sözarası dedim ki, Xəlillə mənim yubileyim bir ilə təsadüf edib. O, sözümü tələsik kəsdi: "Bəs mənə nə üçün deməmisən? Deməli, həm





bədii, həm də elmi şəkildə yazmalı olacağam."

Dediyini etdi. Həmin vaxtdan "Ziyalı" qəzetinin növbəti saylarında ardıcıl dərc olunan materialları həsrətlə gözləyər, elmi-fəlsəfi izahları diqqətlə oxuyardım. Bilirdim ki, onun ecazkar qələminin qdrəti ilə yazdığı hər kəlmədə ürəyinin isti hərarəti var. Tezliklə yazıçı Əlibala Hacızadənin Azərbaycan oxucularına təqdim etdiyi iki əsərdən biri olduqca gözəl və nəfis şəkildə nəşr olundu. Xəlilin haqqında yazılan kitab isə qalırdı. Bir gün o, mənə kədər içində bildirdi ki, kitab hazır olsa da onu çap etdirməyə maddi imkanı yoxdur. Ümidi yeganə bir insanadır, ona da bu barədə söz deməyə utanır. Doğrusu, mən ondan da pis oldum, əhvalım xeyli pozuldu. Axı, Həqiqət xanım doğrudan da son dərəcə imkansız idi. Kitabın taleyi necə olacaqdı? Mən bu kitabı necə böyük səbirsizliklə gözləyirdim? Allah yaxşı insanlara ömür versin. Görəsən, onlar da olmasaydı nə edərdik? Həqiqət xanıma ürək-dirək verdim, səbirli olmağı məsləhət gördüm.

Bu gün o, həmin kitabı oxumaq və fikrimi bildirmək üçün mənə verib. Xərci az çıxsın deyə yazdığı bir bölməni çıxarmağa məcbur olub. Hər halda Xəlillə bağlı olan, gəncliyimizdən bu günə qədər ötən illərə işıq salan bu kitaba görə mən ona ürəkdən minnətdaram.

Həqiqət xanımın çalışdığı, əsərlərini ərsəyə çatdırdığı kiçik redaksiya bu gün alimlərimizin, şair və yazıçılarımızın məbədgahına çevrilib. Bəzən çox gileylənir, bu gediş gəlişlərdən... "İşləməyə mane olurlar, axı məni evdə uşaqlarım gözləyir, gecə saat 3-də , 4-də geri qayıtmaq

çox çətindir. Həm qəzetimi nəşr etdirməliyəm, həm əsərlərimi..."

Onu sevən bütün insanlar bunu çox gözəl bilirlər. Doğrudan da, 16 səhifəlik bir qəzeti heç bir işçisi olmadan təkbaşına hazırlamaq, korrektorluğunu etmək, bununla bərabər il ərzində 6-7 kitab yazmaq asan iş deyil. Düşünəndə ki, onun ailəvi yaşadığı yataqxana (Əhmədlinin Qaçaq Nəbi küçəsindəki 10-cu binada ADNA-nın aspirantları üçün nəzərdə tutulmuşdur) ilə redaksiyasının yerləşdiyi Azərbaycan nəşriyyatı arasında nə qədər böyük məsafə var, heyrətlənməmək olmur. Həqiqət xanım fəlsəfə elmləri namizədi, dosentdir.

Dərs deyir, qəzet nəşr etdirir, elmi əsərlər yazır, mahnı bəstələyir, üstəlik də ailə qayğılarını çəkir. Akademik Hacıbəy Sultanov, tibb elmləri doktoru, professor Nəriman Əliyev, Rusiya Tibb Elmləri Akademiyasının akademiki, AMEA-nın müxbir üzvü, professor Namiq Əliyev, akademik Ağoğlan Hüseynov, filologiya elmləri doktoru, professor Teymur Əhmədov, fəlsəfə elmləri doktoru, professor Maarif Əkbərov AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Vaqif Abbasov, qocaman filosof mərhum Əli Talıbov, şərqşünas alim, professor Maqsud Hacıyev, tibb elmləri doktoru Vaqif Şadlinski, yazıçı-teoloq Oqtay Salamzadə, xalq artisti Canəli Əkbərov və adlarını çəkə bilmədiyim çoxsaylı Azərbaycan ziyalıları haqqında Həqiqət xanımın yazdığı hər bir kitab, ziyalılarımızın tarixi salnaməsidir. Həqiqət xanım astronomiya, təbabət, fəlsəfə, teologiya, iqtisadiyyat və müasir təbiətşünaslıq





konsepsiyası ilə bağlı çoxsaylı elmi əsərlər müəllifidir.

Dünyanın yaranışı və məhvi, sonlu-sonsuz dünyalar haqqında elmi nəzəri baxışlarını müqəddəs kitabımız Qurani Kərimdəki elmi ayələrlə müqayisə etməklə Azərbaycanın tanınmış mütəfəkkiri və alimi Abbasqulu Ağa Bakıxanovun kosmoqrafik təhlillərini davam etdirmiş, 150 il donub qalmış bu sahəni ciddi tədqiq etməklə, dissertasiya müdafiə etmişdir. Bu kitab Həqiqət xanımın 2002-ci ildə yazıdığı yeddinci kitabıdır. Məni Xəlilli günlərimə qaytaran, ömrümüzün şirinli acılı xatirələrinə yeni nəfəs gətirən, canlandıran kitabdır. Hazırda Həqiqət xanım paralel olaraq başqa bir kitab üzərində də çalışır. Yeni tərtib etdiyi - "Azərbaycan körpələri" adlı ensiklopedik kitabında uşaqların dünyagörüşünə uyğun yazdığı şerlərlə onların körpə qəlblərinə sevinc bəxş etmək istəyir. Mən onun hər müvəffəqiyyəti üçün sevinirəm. Sevinirəm ki, xalqımızın tumurcuq körpələrindən tutmuş, yaşlı nəsillərə qədər heç kim onun diqqətindən yayınmır. Eyni qayğı, eyni məhəbbətlə yanaşdığı ziyalılar arasında böyük nüfuz qazanıb, sevilib.

Mən Xəlil Rza Ulutürkün bütün ailə üzvləri adından ona gördüyü bütün xeyirxah xidmmətləri üçün öz təşəkkürümü bildirir, xoşbəxt gələcək, yeni-yeni uğurlar arzulayıram.

***Firəngiz xanım Ulutürk***

# Bir məhəbbət tarixçəsi

1951-ci ilin ılıq bahar günlərindən biri idi. Ağacların üstünə sanki çiçək yağışı yağmışdı. Gözlərdə bahar sevinci, bahar səadəti vardı. Çiçəklərdən şirə çəkən bal arılarının vızıltısı, ətrafı bürüyən xoş rayihə insana qəribə bir rahatlıq bəxş edirdi. Azərbaycan Dövlət Universitetində ikinci növbənin dərsləri başlamalı idi. Zəngə 4-5 dəqiqə qalmış göyçək, səliqə ilə geyinmiş qaraşın bir qız sürətlə ikinci mərtəbəyə qalxdı. Əlində balaca bükülü vardı. Kimsəyə əhəmiyyət vermədən auditoriyanın yarıaçıq qapısından içəri keçdi. Bükülünü ön cərgədə əyləşmiş Simaya verib yenə eyni cəldliklə, kimsəyə baxmadan üçüncü mərtəbəyə-tarix fakültəsinə qalxdı. Gənc tələbə Xəlil bu ani görüşdən donub qalmışdı. Qızı elə ilk baxışdan xoşlamışdı. Ən çox xoşuna gələn isə qızın heç kəsə nəzər salmadan sürətli gedişi idi. "Görəsən bu qız kimdir? Necə də sürətlə getdi. Yəqin işdə-gücdə də beləcə çevikdir." Cavabsız sualları öz-özünə verə-verə bütün günü o qız barədə düşündü.

Çox keçmədən bu qəşəng, mehriban çöhrəli qız haqqında ətraflı öyrəndi. Xəlillə bir qrupda oxuyan Simanın kiçik bacısı Firəngiz tarix fakültəsinin II kursunda oxuyurdu. Sima Azərnəşrdə işləyib Universitetdə oxuduğu üçün anası ikinci növbədə dərsə





gedən Firəngizlə ona yemək göndərirdi. Bəs indiyə qədər bunu niyə bilməmişdi?

Günlər bir-birini əvəz etdikcə Xəlilin intizarı çoxalır, həsrətli baxışları qızın sürətlə qalxdığı pillələrdə ilişib qalırdı. Xəlillə bir qrupda oxuyan dostları-Qulu Xəlilov, Bəkir Nəbiyev dostlarının üçüncü mərtəbəyə tez-tez qalxdığını görüb onun məhəbbətindən xəbər tutmuşdular.

Qəhvəyi məxmərdən büzməli üst köynəyi geymiş Xəlil uca boylu, yaraşıqlı, gözəçarpan bir oğlan idi. Onun daim Firəngizi izləyən məhəbbət dolu baxışları, əksəriyyəti oğlan olan tarix fakültəsinin II kurs tələbələrinin narazı, hədələyici baxışları ilə qarşılaşırdı. Firəngizin ardınca başqa fakültədə oxuyan oğlanın gəlib-getməsini "qeyrətinə sığışdırmayan" dəliqanlı gənclər Xəlilə hədə-qorxu gəlməyə başladılar. Lakin Xəlili öz fikrindən daşındırmaqmı olardı? Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq Xəlilin 3-cü mərtəbəyə daha böyük inadkarlıqla gediş-gəlişi nəticədə qanla bitdi. O zaman tələbələrin Sosialist Əməyi Qəhrəmanı kimi hörmət etdikləri Qubad Nəsibovun "çıx get" - tələbindən qəzəblənən Xəlil oğlanı möhkəm döyərək başını yardı. Üçüncü mərtəbədə baş verən bu qalmaqaldan ilk xəbər tutan fakültə dekanlığı oldu. Qubad tarix fakülətsinin dekanı, professor Əlövsət Quliyevə şikayət etdi. Bununla da ürəyi soyumayıb Xəlili məhkəməyə

verdi. Vəziyyətin son dərəcə mürəkkəbləşdiyini görən professor Əlövsət Quliyev Xəlilin atasını universitetə çağırtdırdı. Xəlilin atası Rza kişinin xahişini nəzərə alan dekan dalaşan iki gənci barışdırsa da, qalmaqal uzun müddət davam etdi. Əvvəlcə Xəlili atası ilə birgə partkoma çağırıb valideyninin yanındaca Sov.İKP-üzvlüyündən çıxardılar. Sonra isə Universitet Komsomol komitəsi Firəngizi çağırıb onu komsomol sıralarından xaric etdi. Sanki hamı Xəlilin büllur kimi saf, müqəddəs sevgisinə düşmən kəsilmişdi. Hətta Firəngizin böyük bacısı Simanın nişanlısı da bu izdivacın baş tutmasının əleyhinə çıxmışdı. Nə üçün? Kasıb olduğu üçünmü? Əslində Xəlil üçün təmiz məhəbbət dünyanın bütün var-dövlətindən yüksəkdə dayanırdı. Ən ümdəsi Xəlil öz məhəbbətini qorumağı bacarırdı və bunu sübut edə bilmişdi. Etdiyi hərəkətdən isə qətiyyən peşiman deyildi. O yoluna çıxan bütün maneələri dəf edəcək, Firəngizin önündə özünü doğruldacaqdı. Bəs görəsən Firəngiz necə? Onu sevirdimi? Bu məsum, tərbiyəli, gözləri tələbə izdihamı içində yalnız Xəlili axtaran qız onun üsyankar məhəbbətini qiymətləndirəcəkdimi? Axı, o haradan biləydi ki, Xəlil qəlbinin saf duyğularından doğulan rəngarəng şer çələnglərini yalnız Firəngizi üçün "hörür"? Bu "çələngin" hər "çiçəyində" onun ətirini duyur.

Yazdığı misraların arxasından ona "baxan" Firəngizin ılıq baxışlarının hərarətiylə isinir? Yox! Xəlil inanırdı ki, Firəngiz ağıllı, hər şeyi başa düşüb dərk edən ciddi, Xəlilin arzu etdiyi bir qızdır. Xəlildə qabaqcadan görmə, intuitiv





duyum hissi çox güclü idi. Firəngiz onun olacaqdı! Xəlili heç kəs, heç nə məqsədindən döndərə bilməyəcək, o məhəbbəti üçün çarpışacaqdı. Ayaqları özü də hiss etmədən onu Firəngizgilin yaşadığı Mirzə Fətəli Axundov küçəsindəki binanın qarşısına aparardı. Saatlarla gözlərini ikinci mərtəbənin pəncərəsindən çəkməzdi. Nəhayət qərara gəldi ki, hər şeyi adət ənənələrimiz çərçivəsində qanuniləşdirsin. Elçi göndərib, nişan taxsın.

O gün bir - birinindən xəbərsiz iki gəncin elçisi Semaşko adına xəstəxananın baş həkimi Böyükağa Hüseynovun qapısını döydü. Ailə başçısı evdə olmadığı üçün Firəngizin anası Leyla xanım elçilərin birini-bir otaqda, digərini isə qonşu otaqda qəbul etməli oldu. Gələn elçilərdən biri onun dayısı oğlu hərbi həkim işləyən Cəmilin elçiləri, digəri isə Leyla xanımın soyuqqanlıqla və bir az da əsəbiliklə qarşıladığı, Universitetdə oğlanlara "əlinin duzunu" göstərən Xəlilin Salyandan gəlmiş valideynləri idi.

Adlı-sanlı Aşurbəyovlar nəslindən olan Leyla xanım öz dayısı oğlunun elçilərini gülərüzlə qarşılayıb hal-əhval tutur, mehribanlıq göstərirdi.

Firəngizin tutqunluğu ananı çıxılmaz vəziyyətdə qoyduğu üçün o "qızım hələ çox gəncdir, 2-ci kursda oxuyur" - deyib elçilərin heç birinə "hə" demədi.

Axşam həyat yoldaşı evə gələndə elçilər barədə ona məlumat verib, qohumunu tərifləməyə başladı:

- Mən kənar yerə qız verə bilmərəm Böyükağa. Cəmil öz qohumumdur, gözəl sənət sahibidir, həm də...

Böyükağa sınayıcı, bir qədər də sərt baxışlarla əvvəl Leyla xanıma, sonra isə narahatlıqla əlindəki kitabı vərəqləyən Firəngizə baxdı:

- Həm də nə?

- Cəmil imkanlıdır, Böyükağa. İstəmirəm qızımız ehtiyac içərisində yaşayan bir tələbəyə ərə getsin. Axı...

Atanın sərt sözləri ildırım kimi çaxdı. Leyla xanım dik atıldı.

- Qızım kimi istəsə ona da gedəcək, bildinmi?

Leyla xanım Firəngizə eşitdirirmiş kimi:

- Rayonlu balasının heç ev-eşiyi də yoxdur - deyib əsəbi-əsəbi mətbəxə keçdi.

Valideynlərinə verilən "yox" cavabı Xəlili əvvəlcə bir az məyus etsə də onun inadkarlığının daha da artmasına səbəb oldu. İkicə gün sonra o, Firəngizin yolunu kəsib aldığı gül üzüyü qızın barmağına keçirdi. "Bizi heç kim bir-birimizdən ayıra bilməz Firəngiz" - deyib od tutub yanan əllərini qızın üzük taxdığı barmağı üstünə qoydu. Firəngiz qorxusundan uçunurdu. Bu nə demək idi? Xəlil onun keçirdiyi həyəcanları duymurdumu? Anası bilsə nə mərəkə qoparacaqdı? Xəilin səsi onun təlatümlü beynində sanki əks-səda verirdi:

- Düzdür bu üzük bizim nişan üzüyümüz deyil. Ancaq bizi bu gündən bir-birimizə bağlayan, məni hər dəqiqə sənə xatırladacaq bir hədiyyədir. Məhəbbət asanlıqla qazanılmayanda onun uğrunda vuruşmaq lazımdır, Firəngiz. Sən qəlbinin səsinə qulaq as, mübariz ol, cəsarət



- 19543 -



həm kişinin həm də qadının iradəsinə mənəvi qidadır. Öz məhəbbətini qoruya bilənlər həyatda qalibdirlər. Xəlilin isti barmaqlarının hərarəti qızın üzük taxılan barmağına hopmuşdu. O, qorxa-qorxa arabir ətrafa baxan Firəngizin saçlarını tumarladı:

- Heç nədən qorxma, bil ki, hər an səni düşünən, yolunda canından belə keçməyə hazır olan Xəlilin var.

Bir andaca Firəngizin gözləri önünə anasının sərt, ittihamedici baxışları gəldi. Biixtiyar barmağındakı üzüyü çıxarıb "bağışla Xəlil" - dedi.

Xəlil ovcuna qoyulan üzüyə düşüncəli-düşüncəli xeyli baxıb köksünü ötürdü. Sonra nə fikirləşdisə onu qızın pencəyinin cibinə qoydu. İncik-incik:

- Hədiyyəni belə qəbul etməzlər Firəngiz-dedi.

Vidalaşıb ayrıldılar.

Evə çatan kimi üzüyü harda gizlətmək barədə fikirləşdi. Anasının qorxusundan gah şifonerdəki paltarların arasında, gah servantdakı qabların içərisində gizlətdiyi bu gül üzük hiylədən, riyadan uzaq olan Firəngizin bütün dincliyini əlindən almışdı. Bu barədə bacısı Sima isə məsləhətləşmək istədi. Bacısı onu dinləyib bərk əsəbiləşdi və hər şeyi olduğu kimi Leyla xanıma xəbər verdi.

Əsl qalmaqal və mərəkə də bundan sonra qopdu.

Valideynlərini saymayıb özbaşına "nişanlanan" Firəngizi möhkəm döyən ana, bununla ürəyi soyumayıb onu ev dustağı etdi. Üzüyü isə Simaya verib qrup yoldaşı Xəlilə çatdırmağı tapşırdı.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Telefona yaxın getmək, pəncərədən baxmaq, balkona çıxmaq, hətta məktəbə getmək də Firəngizə qadağan edildi.

Bir gün Leyla xanım gözlərini onların pəncərəsinə dikib saatlarla orada dayanan gənci Firəngizə göstərdi. Hirsli-hirsli soruşdu:

- Kimdir o? Nə üçün saatlarla dayanıb bizim pəncərəmizə baxır?

Firəngiz qorxa-qorxa Xəlilə baxıb çiyinlərini çəkdi. Anasına ilk dəfə yalan danışdı:

- Kimliyini bilmirəm. Üçüncü mərtəbədəki qarabağlı qızı üçün gəlir. Yəqin onların pəncərəsinə baxır.

Ömründə qızından yalan söz eşitməyən Leyla xanımın üstünə elə bil gün doğdu:

- Deyirəm axı! Amma, yaman göyçək oğlandır. Boy-buxunlu, yaraşıqlı...

Firəngiz heç nə deməyib gözlərini qeyri-ixtiyarı Xəlilin bir müddət öncə üzük taxdığı, indi isə boş qalan barmağına dikdi.





# Görüş üçün bəhanə

Leyla xanımın tələbi ilə Simanın Xəlilə qaytardığı gül üzük gənci tamam hövsələsiz etmişdi. Xeyli fikirləşib götür-qoy etdikdən sonra, bir gün...

Qapının aramsız döyülməsi Leyla xanımı narahat etdi. Firəngizə üz tutub "ay qız bax gör kimdir, xeyir ola"-dedi. Həvəssiz - həvəssiz qapını açan Firəngiz kandardaca donub qaldı. Xəlil əlində balaca bir bloknot və qələm ötkəm səslə, Leyla xanıma eşitdirmək üçün bir qədər də ucadan:

- Bages-dən gəlmişəm. İşıq pulunu ödəməmisiniz-dedi.

Heyrətdən nitqi batmış Firəngiz anasını çağırmağa macal tapmamış Xəlil nə isə yazılmış balaca kağız parçasını onun ovcuna basdı.

Mənzil xərclərini həmişə ailə başçısı ödədiyindən Leyla xanım heyrətlə:

- Bəyəm borcumuz var? - soruşdu.

Firəngiz qəfil çağlayan gülüşünü zorla boğub anasının ardından Xəlilə baxırdı. Xəlil isə diqqətlə müxtəlif cızmaqaralar etdiyi blokenotunu "yoxlayıb" mənalı-mənalı:

- Əlbəttə var. İşıq pulunu vaxtında ödəmirsiniz. Məhkəməyə verilə bilərsiniz xanım - dedi.

Sonuncu kəlmələr Leyla xanımı bərk əsəbiləşdirdiyindən ödəniş çeklərini gətirmək üçün qonşu otağa keçdi.

Xəlil o dəqiqə astaca pıçıldadı:

- Kimya fakültəsindəki dekanlığın yanında səni gözləyəcəyəm Firəngiz. Deyiləcək sözüm var, mütləq gəl. Eşidirsənmi, sabah gəl, gözləyəcəyəm.

Leyla xanım əlindəki bir yığın ödəniş kakğızlarını Xəlilə uzadanda Firəngiz bayaq Xəlilin verdiyi kağızı ovcunda bərk-bərk sıxaraq asta addımlarla öz otağına keçmək istədi. Elə bu vaxt Xəlilin ucadan dediyi sözləri eşitdi.

- Yox xanım, ödəməmisiniz. Bunlar köhnədir. Xəbərdarlıq etməyə borcluyam ki, işıq pulunu ödəməsəniz məhkəməyə veriləcəksiniz.

Leyla xanım qapını örtüb deyinə-deyinə mətbəxə keçəndə Firəngiz Xəlilin verdiyi bloknot vərəqindəki bir bənd gileyli şerini oxuyurdu.

Xəlilin məhəbbət dolu sətirlərə köçən gileyini... Şeri oxuyan kimi anasının qorxusundan kiçik vərəqi xırda-xırda doğrayıb pəncərədən həyətə səpələdi. Sətirlərdən qəlbinə hopan kəlmələri isə unuda bilmirdi. Üzüyünün qaytarılmasından kədərlənən Xəlilin yazdığı bir bənd şer onu yaman kövrəltmişdi. Heyif ki, həmin şer yadında tam qalmadı.

**Əlimi saçlarına çəkmişəm Firəngizim,**
**Əlimin istisini qaytara biləcəksən?**

Bir gün sonra Firəngiz on günlük ev dustaqlığından azad olub Xəlillə görüşdü.

Xəlilin göstərdiyi şəkil Firəngizi təəccübləndirdi:

- Mənim şəklimi haradan tapmısan Xəlil?

- Universitetdəki şərəf lövhəsindəki şəklindir. Oradan





qoparmışam.

- Nə üçün?

- Bilirsənmi Firəngiz. Mənim başqa çıxış yolum yoxdur. Əgər valideynlərin bu dəfə də mənə yox cavabı versələr şəklini onlara göstərib deyəcəyəm ki, biz bir-birimizi sevirik. Bu şəkli də mənə Firəngiz verib. Qızınız mənimlə gəzir. Özünüz fikirləşin, götür-qoy edin.

- Bu axı mənim üçün yaxşı olmaz Xəlil!

- Qorxma Firəngizim. Heç nədən qoxrma. Düzdür mənim varım dövlətim, gözəl geyimim yoxdur.

Amma bütöv, öz məhəbbətinə həmişə sadiq bir qəlbim var. Ləkəsiz! Riyadan uzaq!

Son sözləri o bir qədər ucadan deyib, diqqətlə qızın gözlərinin içinə baxdı.

Onlar xeyli söhbət etdilər. Firəngiz evə qayıdanda Xəlilin cəsarətli, mehriban kəlmələrinin hərarətini də özü ilə apardı. O indi əvvəlki Firəngiz deyildi. Xeyli yüngüllük duyurdu. On gündə sıxıntılar içində keçən dəqiqələri də unutmuşdu. Fəxr edirdi ki, Xəlil kimi cəsur, sözü üzə deməkdən çəkinməyən sadiq bir ürək sirdaşı var. Artıq kimlərinsə bu "rayonlu balası"nı bəyənməməsinin də onun üçün heç bir əhəmiyyəti yox idi. Çünki, Xəlilin Firəngizin istəklərinə layiq, onu hər cür soyuq, kinayəli baxışlardan qoruya bilən günəş boyda qəlbi vardı.

Bir həftə sonra Firəngizin atası Böyükağa Hüseynov öz xidməti işi ilə əlaqədar olaraq Səlyana ezam olundu. (Bu da taleyin bir təsadüfi deyildimi?) O, bir müddət Səlyanda

işləməli, sanitar-epidemoloji tədbirlərin həyata keçirilməsinə rəhbərlik etməli idi.

Rayona gələndən az sonra Xəlilin atası Rza kişi onunla görüşüb tanış oldu. Yaxın dostluq münasibətləri yaratdı. Mqəsdini açıb ona bildirəndə Böyükağa Hüseynov "qızım etiraz etməsə mənim heç bir sözüm yoxdur" - cavabını verdi.

Artıq elçilərin gələcəyi haqqında Leyla xanımın məlumatı vardı. Ona görə də fikirli-fikirli elçiləri gözləyirdi.

Qapını açanda heyrətdən donub qaldı. Yenə işıq pulu yığan? Nə isə demək istədi. Sözlər boğazında tıxnanıb qaldı. Gəncin yaraşıqlı, gülümsər baxışlarında qəribə bir məhrəmlik gördü. Yanında dayanmış qadın utancaqlıqla həm Xəlilə, həm də elçiliyə gəldiyi evin xanımına baxırdı. Üzə vurmasa da "üçüncü mərtəbədəki qarabağlı qızının ardınca gəlib, saatlarla gözlərini pəncərədən çəkməyən", "ödənilməmiş işıq puluna görə" Leyla xanımı "məhkəməyə verən" oğlanın kimliyini anlayıb köksünü ötürdü. Elçiləri evə dəvət etdi. Bir azdan Böyükağa Hüseynov da gəlib çıxdı. Elçilərlə yarım saatlıq söhbətdən sonra Firəngizin otağına keçdi:

- Qızım, fikrin nədir Cəmilə getməyə razısan yoxsa Xəlilə? Mən elçilərə cavab verməliyəm.

-Cəmili neynirəm ata?

Əsəbiliklə deyilmiş bu sual atanı diksindirdi. Deməli qızı... Qonşu otağa keçib intizarla cavab gözləyən elçilərə "çayınızı için" - dedi.




Bir müddət sonra Firəngiz Səlyana -Xəlilin ata evinə gəlin köçdü. Onlar xoşbəxt idilər. Uzun əzab-əziyyət və çətinliklərdən sonra bir-birinə qovuşmuşdular. Hər ikisi bəxt qismətlərindən razı qalmışdılar. Qarşıda onları gözləyən çətinliklərdən qorxmurdular. Məhəbbət hər şeyə üstün gəlir. Onlar Bakıya qayıdıb ev kirayələdilər. Leyla xanım Xəlilin mehribanlığını, xoş ünsiyyətini görüb peşimançılıq hissi keçirirdi. Xəlil Leyla xanıma hörmət və ehtiramla yanaşmağı Firəngizə də tövsiyyə edirdi. Bu barədə Firəngiz xanım Ulutürkün xatirələri maraq doğurur:

"Mən Xəlildən yerdən göyə qədər razı idim.

Onun doğrudan da böyük qəlbi var idi. Məndən tez-tez xahiş edirdi ki, anam bizə gələndə yaxşı qarşılayıb yola salım ki, ürəyinə bir söz gəlməsin. Qızını qoruyan ana elə bu cür də hərəkət etməlidir"-deyib mənimlə anam arasında qoyulan inciklik körpüsünü aradan qaldırırdı. Doğrusu, anamın bu qədər dəyişdiyinə özüm də heyrət etdim. O, Xəlilə çox qısa müddətdə isnişib onu öz balası kimi sevdi. Həyatın bərkindən-boşundan çıxmasam da Xəlilin sınağından yaxşı çıxdığım üçün özümü xoşbəxt hesab edirdim. Biz təkcə ömür-gün yoldaşı deyildik, həm də yaxın dost idik. Bircə baxışından onun nə demək istədiyini başa düşürdüm. O da, eyni ilə bu cür məni anlayırdı. Bu hər kəsə nəsib olacaq səadət deyildi. Xəlilim billur kimi saf idi, yalan nə olduğunu bilməzdi. Yaxşı xatirimdədir. O, zamanlar yalnız paltar sabunu var idi, yuyucu tozlardan istifadə olunmurdu. Xəlilin köynəklərini ağ yuyub qara

sərirdim. Utana-utana "nə edim Xəlil, anam mənə yalnız "dərslərini oxu" - deyib, paltar yumağı öyrətməyib. Ona görə də paltar yuyanda təmiz yuya bilmirəm"-dedim. Gülümsünüb "fikir eləmə Firəngiz"-dedi. Gecə mən yuxuya getdikdən sonra köynəkləri götürüb yuyub, sərir ki kirayə qaldığımız evin sahibi onun paltar sərdiyini görməsin. Sübh tezdən zivədə sərilmiş köynəkləri görüb xəcalət çəkdim. Xəlildən utandım. Mənim Xəlilim bax, bu cür gözəl insan idi. Öz qüvvətli barmaqları ilə köynəyi necə möhkəm sıxmışdısa, qollarının qırışını güclə ütüləyib açdım. Yeddi il övlad həsrəti ilə yaşadım. Bu müddət ərzində Xəlil bir dəfə də olsun uşaq barədə söz salmadı. Mən söz açanda: "Uşaqdan ötrü qəm yemə Firəngizim-dedi. Uşaq məni uzağı 60-70 il yaşadacaq, sən isə əbədi yaşadacaqsan"-söylədi. Düzü əvvəlcə bir şey anlamadım. Hətta Xəlilin soyuqqanlı dediyi sözlərə heyrət etdim. Amma indi, illər keçdikdən sonra onun bu sözlərlə nə demək istədiyini başa düşmüşəm."





# Qoy sənə doğulan günəş deyim ki...

1964-cü ildə Xəlil Rza Ulutürkün ilk övladı Təbriz dünyaya gəldi. Ailənin ən böyük səadəti, yeddi illik həsrətin ilk bəhəri... Xəlil Rzanın sevincdən pərvazlanan ilhamı ağ kağıza sürətlə inci kimi misralar düzdü. Təbrizin doğum gününə həsr etdiyi şerində uzun illərdən bəri yığılıb qalan həsrətin işartıları sayrışdı:

**Qoy sənə doğulan günəş deyim ki,**
**Nurunla açılan al səhərəm mən.**
**Yeddi il yol gələn ay mənim ilkim,**
**Gəldiyin yollara gül düzərəm mən.**

**Özüm də bilmirəm nə işdir bu iş,**
**Yerdənmi, göydənmi tapmışam səni?**
**Bəlkə də səni heç tamam verməmiş,**
**Taleyin əlindən qapmışam səni.**

**Sən bu gün-sevincim, qanadım, qolum,**
**Dünən ürəyimdə dağ olmusan sən.**
**Heç ana bətninə düşməmiş, oğlum,**
**Bu ata qəlbimdə doğulmusan sən.**

Özün də bilmirsən öz qiymətini,
Döyüş səngərimsən, qalamsan mənim.
Bir evin qeyb olmuş səadətini,
Min evə qaytaran balamsan mənim.

Ən böyük sevincsən, ən müqəddəs qəm,
Məni alovlara atan Təbrizim.
Üzünə baxanda balam deyirəm,
Adını çəkəndə atam-Təbrizim!

Mən səni görəndə çırpınır qəlbim,
Deyirlər naşıyam, görməmişəm mən.
Alıram boynuma, niyə gizlədim,
Sənin tək səadət görməmişəm mən.

Anan süd veribdir, fəqət, mən sənə,
Köksümdə közərən odu vermişəm.
Seçib milyon-milyon adlar içindən
Dünyada ən gözəl adı vermişəm.

Sən-oğul!
Sən-igid!
Sən -ər oğlu ər!
İftixarla daşı sən öz adını.





Məğribə,
məşriqə,
cahana göstər
Adında gizlənmiş istedadını.

Bir səhər, bir günəş var mənzilimdə,
Qoy dünyalar bilsin nəçisən, kimsən.
Kiçik mənzilimdə, dar mənzilimdə,
Sən ucsuz-bucaqsız məmləkətimsən.

Ey bala Təbrizim, gün o gün olsun,
Ana Təbrizimə mən azad deyim.
Ustad Şəhriyarla görüşün olsun,
Qovuşsun Təbrizə Şəhrizad deyim.

Arzular könlümdə çeşmə-çeşmədir,
Arzular qoynunda boy atmış könül.
Səni arzum üçün, amalım üçün,
Səni döyüş üçün yaratmış könül.

Atanın ömrünə oğul yaraşıq,
Qoy bir nəfəs alım daha dərindən.
Mən öz Təbrizimlə bu gün yanaşı,
Keçərəm Bakımın küçələrindən.

**Bu gün yağış yağır... qorxma yağışdan,**
**Tufanda, şimşəkdə bərkisin canın.**
**Sən mənim balamsan, mən sənin atan,**
**Biz bir cüt oğluyuq Azərbaycanın.**[1]

Maraqlıdır ki, ilk nübarını böyük məhəbbətlə sevən, bu gəlişə az qala dastan yazan bir ata, valideynlərinin yanında körpəyə gözünün ucu ilə də olsun baxmaz, qucağına götürməz, adını da çəkməzdi. Xəlil Rzada adət-ənənələrimizə böyük hörmətlə yanaşmaq, bunu başqalarına da təlqin etmək hissi güclü idi. Firəngiz xanım bu barədə fəxrlə danışır: "Bir dəfə Təbriz iməkləyib, anası Xanımla söhbət edən Xəlilin ayağını qucaqladı. Xəlil ayağını çəkib, körpədən aralamaq istədi. Körpə atasının ayağını daha bərk qucudu. Xəlil o biri ayağı ilə körpəni astaca kənara itələdi, ancaq əyilib götürmədi. Baxmayaraq, Təbriz onun ciyərparası idi. Mən özümü yetirib körpəni götürdüm. Bilirdim ki, Xəlil daxilən əzab çəkir, lakin anasından abır saxlayır, hörmətsizlik etmək istəmir. Axı, Xəlilin anasına, körpə Təbrizinə bəslədiyi məhəbbət elə belə məhəbbət deyildi. Xəlilin bütün hərəkətləri müəyyən ölçü çərçivəsindən kənara çıxmırdı. O, məhəbbətin də, hörmətin də öz yerini bilirdi."

Təbrizin ayağı sayalı oldu. Ardınca Rza dünyaya göz açdı. Xəlil Rza ocağının istisi artdı.

---

1 *Xəlil Rza Ulutürk. Türkün dastanı. Bakı, 2000. səh.74-77.*





Şairin övladı onun arzu və istəkləri ilə tərbiyələndi. Təbrizə olan nəsihətlərində şair öz adına layiq övlad böyütmək istəyini etiraf edir:

**Uzaqlarda gəzirik çox zaman düşməni biz.**
**Elə öz içimizdə; xırdalıqda deyilmi**
**Ən yekə düşmənimiz?!**

**Yaxın qoyma qəlbinə murdar duyğunu sən**
**O çamurdan bir gilə günəş ruhuna düşsə**
**Öz atalıq haqqımı**
**Haram bilərəm sənə.**

**Cılız, kirli hisslərin qarşısında əyilsən,**
**Mənim oğlum deyilsən.**

Xəlil Rza Ulutürk vətən sevgisini yalnız cəsurluqda, hünərdə axtarmağı övladlarına təlqin edərək bu yolda hər əzaba qatlaşmağı vicdanın səsinə qulaq asmağı məsləhət bilirdi.

**Varlığında kədər də, dərd də rişələnəcək.**
**- Vətən! - desən, yanacaq bəbəklərində şimşək.**

**Ömrüm-günüm, onda sən**
**Vətəni axtarma gəl yalnız xəritələrdə.**

**Axtar öz könlündəki,**
**Cəsurluqda, Hünərdə!**

**Soruş, cavab verim mən, hardan başlanır Vətən:**
**Vicdanın öz səsindən.**

Xəlil Rza atanın övlada olan sevgisini o qədər məharətlə qələmə alıb ki, oxucu bu məhəbbətin vəsfəgəlməz gözəlliyini dərk edir, təsirlənir, ata məhəbbətinin ülviliyinə heyran kəsilir.

**Bir-birinə çox yaraşır oğul, ata**
**Ah,**
**İllah ki,**
**Oğul bir az məngərlənib**
**boy atanda!**

**Canım, gözüm!**
**Nə qədər ki, macalın var,**
**ayrı düşmə sən atandan.**

**Bir-birinə çox yaraşır ata-oğul,**
**Oğul-ata**
**Macal tapsa,**
**oğul gərək atayla tən addım ata!**
**Yolundakı hər tikanı qırıb ata.**
***/"Ataya oğul yaraşır"/***





Xəlil Rza vətəninin bütün övladlarına sevgisi ilə zinətlənən şer çələngi hörüb bağışlayır. O, təkcə Təbrizi, Rzanı vəsf etmir:

**Kim deyər övladım birdir, ikidir,**
**Bağbanam, öz barım, öz bəhərim var.**
**Sabir bağçasına arabir gələk-**
**Heç bilsən nə qədər balalarım var!**
***/"Övladlarım"/***

Xəlil Rza üçün bu körpələr sabahın döyüşçüsü, cəsur əsgərləridir. Bu gün doğma dilimizdə Sabirdən şer söyləyən bu körpələri Azərbaycanın milli ordusunun əsgəri kimi görmək istəyi şairə ilham verir:

**Səslər, büllur səslər, ilahi səslər.**
**Könlüm o səsləri gözümdə bəslər.**
**Bizim doğma dilli övladlarımız,**
**Sabahkı döyüşçü, sabahkı əsgər!**

**Rzamı, Təbrizmi övladım ancaq?**
**Yurdun hər yavrusu şah əsərimdir.**
**Sabirin şerilə dil açan bala**
**Mənim öz balamdır, can ciyərimdir.**

Şerlərində oğluna Nizami Gəncəvinin dəyərli söz gövhərinə bənzər qiymətli kəlamlarla nəsihətlər edən şairin

böyük dünyasının səyyahı olmaq nə qədər maraqlıdır?!

**Sən biləcəksən ki, dünya üzündə**
**Gövhərdən dəyərli saxsılar da var.**
**Gözlüdən çox gözəl gözsüz oğullar.**
**Atlıdan bərk gedən axsaqlar da var.**

**Natiq tapacaqsan lallar içində,**
**Bəzən atəş qalır küllər içində.**
**Dünyanın çox gözəl mərd oğulları,**
**Çox adi yaşayır ellər içində.**
*/"Hər şeyin yaxşısı"/*

Şairin Təbrizə həsr etdiyi şerlər bəzən insanı mütəəssir edir. Axı onların heç biri artıq həyatda yoxdur. Təbriz atasının bütün arzularını yerinə yetirdi.

O, əsl vətən oğlu, əsl ləyaqət simvolu oldu.





# Xəlil Rza Ulutürk ocağının hərarəti, dəyanəti...

# Firəngiz xanım Ulutürk



*1932-ci il dekabrın 31-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Tarix, ictimaiyyət fənlərinə böyük maraq göstərmiş, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. 1956-cı ildə ali məktəbi bitirib Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsinin 26 Bakı komissarı adına mətbəəsində kadrlar şöbəsinin müdiri vəzifəsində çalışmışdır.*

*1957-1959-cu illərdə ömür-gün yoldaşı Xəlil Rza ilə birlikdə Moskvada yaşamışdır. 1969-cu ildə M.Əzizbəyov adına Azərbaycan Neft Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) "Elmi Kommunizm" kafedrasında (hazırda kafedra "Fəlsəfə və poltologiya" adlanır) əvvəlcə baş labarant, 1970-ci ildən bu günə qədər müəllim vəzifəsində çalışır. Xəlil Rza poeziyasının tədqiqatçısıdır. Şairin vəfatından sonra onun 17 əsərini tərtib edərək, nəşr etdirmişdir.*







# Təbriz Xəlilbəyli

## (1964-1992)

*Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəyli poeziyaya qəlbən bağlı olan bir gənc idi. Azərbaycan Dövlət İncəsənət İnstitutunun "kütləvi tamaşalar rejissoru" fakültəsinin 4-cü kursunda oxuyurdu. Ermənilərin Azərbaycana qarşı xəyanətinin ilk günlərindən Xəlil Rza Ulutürkün alovlu çıxışları, xalqımıza müraciəti, könüllü dəstələrin yaranmasına səbəb olmuşdu.*

*Bu isə əhalinin müəyyən qismi tərəfindən yaxşı qarşılanmırdı. Emosiyaya qapılmış bu qisim adamların Xəlil Rza Ulutürkə xəsarət yetirəcəyindən ehtiyatlanan Təbriz, anası Firəngiz xanımın dediyinə görə atasının kütlə qarşısında çıxışları zamanı sinəsini onun önündə sipərə çevirərdi.*

*Təbriz Xəlilbəyli Vətən üçün doğulmuşdu, vətən qeyrətini ana qeyrətinə bərabər tuturdu. Bu yolda canını fəda etdi. Vətən yolunda şəhid olanlar ölmürlər: Təbriz Xəlilbəyli ölməzlik zirvəsinə öz qanı bahasına yüksəldi, əbədiyyətə qovuşdu. Ailəli idi. Türkay və Gültac adlı qızları bu gün ölməz şairimiz Xəlil Rza Ulutürkün nəvələri, Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəylinin övladları olduğu üçün fəxr edirlər.*





# Rza Xəlilbəyli



*Zamanla döyüşən Xəlil Rza Ulutürkün övladları da onun yolunun davamçıları olmuşlar. Şəkildə: Azadlıq Hərəkatı zamanı mitinqlərdə xəsarət almış Rza Ulutürk xəstəxanada müalicə olunarkən. 1988-ci il.*

*Xəlil Rza Ulutürkün ikinci övladı Rza bu gün demokrat şairin yeganə yadigarıdır. Vətənə qəlbən bağlı olan Rza Xəlilbəyli bu ocağın odunu söynməyə qoymadı. Xəlil Rzanın ruhu dolaşan bu evə, bu ailəyə həyan oldu.*

*Bu ocaqda indi Rza Xəlilbəylinin iki övladı Gülnur və anasının adını verdiyi balaca Firəngiz böyüyür. Halallıq, mənəvi təmizlik hökm sürən ailə nümunəvi ailədir. Rza Xəlilbəyli böyüdüyü, boya-başa çatdığı evdə həmişə bunu görüb, övladlarına da bunu təlqin edə bilib.*

# Üçüncü minilliyin birinci şairi





Sənətkar oğluyam bəşəriyyətin,
Zülmət dərk edərmi yanan çırağı?
Ariflər yanında quzu kibiyəm,
Nadanlar yanında Savalan dağı.

Rədd ol, Nəsimidir qarşıdan gələn,
Füzuli rübabı, Sabir səsiyəm.
Bütün dahiləri yığ kənara qoy,
Bütün dahilərin birləşməsiyəm.

Təbliğat maşını min-min olsa da,
Mənim gözlərimi bağlamaq olmaz,
Misra-rels üstündə bir qataram ki,
Məni çovğun ilə saxlamaq olmaz.

Ölsəm məzarıma yanaşma, rədd ol,
Öləndən sonra da sağam, diriyəm.
Bir ana bətnində hələ yol gələn,
Zəkalar beynində bir dan yeriyəm.

*/Xəlil Rza Ulutürk/*

# Türkçülük məfkurəsi: Milli "mən" fəlsəfəsi, dilçilik haqqında...

Azərbaycanda keçən əsrin sonlarından başlayaraq H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağayev, N.Nərimanov, C.Məmmədquluzadə, F.Nemanzadə, M.Hadi, H.Cavid, A.Şaiq, M.Ə.Sabir, Ü.Hacıbəyov, H.Z.Tağıyev, Ə.Topçubaşov, C.Cabbarlı, Ə.Cavid, S.Mənsur, M.Hacınski, M.Ə.Rəsulzadə və başqa görkəmli tarixi ədəbi şəxsiyyətlər "Əkinçi", "Ziya", "Kəşkül", "Həyat", "İrşad", "Füyuzat", "Molla Həsrəddin" kimi mətbuat orqanlarında türkçülüklə bağlı müəyyən məsələlərə: türk mənşəyi, türkləşmək, millətin adı, dili, ərazisi ilə bağlı milli-tarixi məsələlərə toxunulmuş, islamlaşmaq, müasirləşmək haqqında fikirlər söylənilmişdir. Cəmi 23 ay yaşamış Azərbaycan Demokratik Respublikası milli şüurun, milli dövlətçiliyin qərarlaşmasında xüsusi rol oynamışdır. "Azərbaycanlı" milli ideyası" ideologiyaya çevrilmə prosesində tarixi inkişaf baxımından turançılıq-türkçülük mərhələlərini yaşamış, XX əsrin əvvəllərindən etibarən müstəqil ideya cərəyanına çevrilərək, Azərbaycan milli dövlətçiliyini meydana gətirmişdir. Böyük öndərimiz M.Ə.Rəsulzadə türk xalqlarının imperiya anlamında deyil, humanitar, iqtisadi siyasi və mədəni formada əlaqələndirilməsini məqbul hesab etmişdir. 1919-cu il may ayının 8-də o, "İstiqlal" qəzetinin 13-cü sayında yazırdı:





"Millətin əsası dinmidir, yoxsa dil?", "biz müsəlman millətiyik, yoxsa türk... Bu iki fikri bir-birinə zidd görənlər var. Fəqət nahaq. Bu iki fikir zidd deyil, bəlkə müttəfiq fikirlərdir. İslamiyyət beynəlmiləl qüvvəti o birinin qüvvətidir."

80-cı illərdə çağdaş milli demokratik hərakatın başlanması, türkçülük məfkurəsinə yenidən qayıdış üçün təkan oldu. Bu məfkurə Xəlil Rza Ulutürkün yaradıcılıq manerasında ön nöqtədə dayanırdı. Mənlik şüuru, yaxud milli "mən" fəlsəfəsi şairin dəyişmə və təkamülə, azadlığa və qüdrətə olan baxışları ilə çulğalaşaraq milli məfkurə qaynağına çevrildi. Hər halda bir həqiqəti unutmaq olmaz ki, azərbaycan milləti türk etnosu zəmini üzərində yaranmış olsa da, min illər ərzində onunla qaynayıb qarışmış digər etnoslarla birlikdə uzun tarixi inkişaf yolu zəmini üzərində formalaşaraq bugünki millət halına gəlib çıxmışdır. Şairin türkçülüklə bağlı şerlərində milli "mən" meyllərin, canatmaların, qüvvət və fəaliyyətin "davamlılıq mənbəyi kimi saysız hesabsız çətinliklər və maneələr içərisindən özünə yol açaraq üzə çıxır. O millilik, dil mənsubiyyəti baxımından "azərbaycanlı" sözünə etiraz edərək bu sözü türk dil qrupunun tərkib hissəsi, kökdə gövdə hesab edir. Hər halda azərbaycan dili tarixinə nəzər salsaq görərik ki, dilimiz 20-dən artıq türk dilindən biri olub eyni kökdən-qədim türk dilindən ayrılmışdır. Bəlkə elə buna görə də o, yazırdı:

**Dayağımdır, bayrağımdır, varlığımdır-Türklüyümüz!**
**Cəsur, oğuz - Türklüyümüz!**

*("Nə yaxşı ki...")*

Xəlil Rza Ulutürkün "Qalx ayağa Azərbaycan", "Yalnız pasportunda", "Sən alçaqsan", "Boz qurda öygü" şerlərində türkçülüyə məhəbbət və ehtiramla bərabər Qərbin burjua ideoloqlarının fikirlərinə qarşı çıxışları soy kökünün müdafiəsinə qalxmış bir insanın ittiham aktı kimi səslənir.

Şair dünya türklərinə məhəbbətini, onlarla fəxr etdiyini elan edir. "Hə yaxşı ki..." şerində o bu məhəbbət və fəxarəti belə ifadə edir:

**Nə yaxşı ki, bu dünyada İstanbul var, Ankara var.**
**Nə yaxşı ki, köksümüzün Türk adlanan səngəri var.**
**Nə yaxşı ki, Azərbaycan türkləri var,**
**Nə yaxşı ki, Özbəkistan türkləri var.**
**Nə yaxşı ki, Türkmənistan, Qazaxıstan türkləri var,**
**Dağıstan, Tatarıstan, Başqırdıstan türkləri var.**
**Nə yaxşı ki, Altay, Sibir, Uyqurstan türkləri var,**
**Pərən-pərən edilsə də,**
**Adı dəyişdirilsə də, ruhu qanı dəyişməyən**
**Bolqarıstan türkləri var!**
**Nəsimiyə göydən gələn bir səs verən,**
**Füzuliyə min il yaşar nəfəs verən pərvədigar!**
**Nə yaxşı ki, Kərkük, İraq türkləri var,**
**Bağdad, Hələb türkləri var!**

Bu şairin milli "mən"indən doğan, türk birliyini tərənnüm edən şerlərindən biridir.

Azərbaycan türkü kimi özünüdərk zirvəsinə yüksələn





şair əsl həqiqətdə M.Ə.Rəsulzadənin "Milli müstəqilliyin əsası yalnız dərk olunmuş milli "mən"in mövcudluğudur" fikrini poetik şəkildə təsdiq edir. Yç kəlmə söz, misraları beyinlərə həkk olunacaq bir şüara çevirir. Şerin məna dəyərini artırıb ona tamlıq, dolğunluq verir:

**Qorxma, mənə qulaq as.**
**O ağappaq kağıza bircə "Anam" sözü yaz.**
**O ağappaq kağıza "Azərbaycan" sözü yaz.**
**O qızıl dan yerinə "Öz balanam" sözü yaz.**

***("İradə")***

Xəlil Rza Ulutürk Azərbaycanda yaşayan ayrı-ayrı etnosları türkə qarşı qoymur.

Məlum olduğu kimi Azərbaycan etnik, milli və dini rəngarəngliyə görə digər Qafqaz ölkələrindən əsaslı şəkildə seçilmişdir. Təkcə bir faktı qeyd etmək yerinə düşərdi ki, Azərbaycanda bu gün minimal min nəfərdən artıq olan otuza qədər etnos yaşayır. Çox maraqlıdır ki, 2001-ci ilə 8 milyon əhali ilə qədəm qoyan Azərbaycanda 1999-cu ilə qədər keçirilən siyahıyaalma müstəsna olmaqla - bütün siyahıyaalmalarda qeyri dəqiq informasiyalar verilmiş, etnik tərkib siyasi maraqlar baxımından düzgün qeyd olunmamışdır. Hədənsə belə hesablamalar zamanı minimal sayı min nəfərdən yuxarı olan saxurlar, laklar, darginlər, kürdlər, tatlar, udinlər, o cümlədən də mehset türkləri və digər etnoslar göstərilməmişdir. 1998-ci ilin 1 yanvarına qədər ümumi əhalinin 10 faizini təşkil edən Biləsuvar, Lənkəran, Astara,

Lerik, Cəlilabad, Masallı və Yardımlı bölgələrində yaşayan etnos talışlar bu siyahılarda "azərbaycanlı" kimi qeydə alınmışlar. Xəlil Rza Ulutürk "Yalnız pasportunda" şerində Azərbaycandakı bütün etnoslara məhəbbət və hörmət bəslədiyini belə ifadə edir:

**Mən günəş ürəkli Xəlil Rzayam**
**Yer boyda, göy boyda təbiətim var.**
**Reyhan yrapağından qarışqayacan.**
**Yurdumda hər kəsə məhəbbətim var.**
**Ana torpağımda hər bir elata,**
**Lahıca, ləzgiyə, talışa, tata.**
**Udinə, ritula səadətim var.**
**Yer boyda, göy boyda məhəbbtim var.**

Lakin o üzdə özünü "dost" göstərən, əsl həqiqətdə "ölkəmizdə təfriqələr salan ermənipərəstlərə, "sadvalçılar"a qarşı kəskin münasibətini, nifrətini gizlətmir. Onları simasız adlandırır.

**Yalnız pasportunda Azərbaycanlı**
**Simasız yurd üçün tabuta bənzər.**
**Mənimçün ölüdür, yad üçün canlı,**
**Bacarsa, ayağı başımda gəzər.**
**Simasız yurd üçün tabuta bənzər.**

Ömür gün yoldaşı Firəngiz xanımın dediyi kimi şair Xə-





lil Rza dünyanın Ulutürküdür.

Bəlkə elə buna görə də türk sözü onun poeziya dünyasından günəş kimi işıq saçır, nuru Şərqə də Qərbə də yayılır:

**Nə yaxşı ki, Alpamış var, Koroğlu var.**
**Şərq də Qərb də mənəm! - deyən Türk oğlu var.**

Ürəyi "türk" kəlməsinin ritmində çırpınan Xəlil Rzanın Bakının Türkan kəndində bağ yeri götürməsi də səbəbsiz deyildi. Şair əllərinin qabarı, alının təri ilə o yerdə çalışmaqdan mənəvi zövq duyurdu. Bu barədə şairin xanımı Firəngiz Ulutürkün maraqlı xatirəsi var:

"Doğrusu Xəlilin tamamilə kol-kos basmış, daş-qaya parçaları ilə dolu bir sahəni götürməsinə əvvəl etiraz etmək istədim. Lakin onun fikirli - fikirli söylədiyi sözlər susmağıma səbəb oldu: "Bilirsənmi Firəngiz - dedi - mən bu yeri nə üçün götürmüşəm? Ona görə ki, bu yerin adı Türkandır. Türk kəlməsinin əzəməti duyulan hər bir ad mənə əzizdir. Buranı laləzara döndərəcəyəm." Daha bir söz demədim. Çünki Xəlilin baxışlarında inam və inadla dolu bir ifadə var idi."

Xəlil Rza Ulutürk dünyanın Ulutürkü kimi öz soy kökü ilə fəxr edirdi:

**Türksənsə, qalx! Çat dadına batanların,**
**Gündüz gözü baxa-baxa yatanların.**

**Kimdi layiq Türk adına? Haqdır bilsin hər acgödən:**
**Özü dustaq ola-ola ... özgəsini xilas edən!**

Misralardan göründüyü kimi şair türklərin əzəmətini, ləyaqətini və mərdliyini fəxrlə qeyd edir.

Hətta türk özü dustaq ola-ola özgəsini xilas etmək qüdrətinə malikdir. Bu türkün mərdliyidir.

Heç bir ölçüyə sığmayan məğrurluğu, qüdrəti və böyüklüyüdür.

Xəlil Rza Ulutürk yazdığı "Yrəyimdə qalan tikan" şerində öz ideyasına sadiqliyini poetik dillə oxuculara çatdırır. Hatəvan klubunda qələm dostları və tələbələri qarşısında çıxış edən şair dilimizin təmizliyi haqqında öz fikirlərini bildirir. Sədr ona etiraz edir. O, şairə üz tutaraq:

**Özün bilirsən ki, mən Fikrəti də sevirəm.**
**Ustad Namiq Kamalı, Hamidi də sevirəm.**
**Sevirəm qızıl saçlı, ala gözlü Hikməti,**
**Onun arxasındakı üsyankar məmləkəti.**

**Çox böyükdür o yurda məhəbbətim, rəğbətim.**
**Ancaq türk deyilik biz.**
**Bunu əzbər bilin siz.**
**Bunu aşkar bilin siz.**
**Heç vaxt türk olmamışıq**
**Azərbaycanlıyıq biz!**





**Gördü ona inanan, hələ əl çalan da var.**
**Hatiq bir az da qızdı, car çəkdi açıq aşkar:**
**- Rza Xəlil!**
**Bunu bil:**
**İstanbul başdan-başa al qırmızı geysə də,**
**Ankaranın, İzmirin kommunist bayraqları**
**ulduzlara dəysə də,**
**yenə türk deyilik biz.**
**Bu şəksiz həqiqəti dərk et şəksiz, şübhəsiz.**

Xəlil Rza Ulutürkə bu kəlmələr tanış gəlir.

O, qəlbinin arzuları sığışmayan bu salonda özünü sal qaya kimi hiss edir:

**Salon tüğyan içində. Mən qranit, sal qaya.**
**Varlığımı vermişəm bəlkə ulduza aya.**
**Bu kəm nəfəs salondan min qat geniş dünyaya!**
**Gözləyirəm nitqini haçan bitirər sədr,**
**Nitqinin məğzi nədir?**
**Nişan vermək istəyir bəlkə məni kiməsə?**
**Burdadımı o kimsə?**
**Burdadımı şeytanlar?**
**Günəş kimi Cavidə dünən çaxır atanlar!**
**Arxasında Müşfiqin qollarını çatanlar!**

Xəlil Rza Ulutürkün üsyankar kəlmələri türkə düşmən kəsilənlərə qarşı ən kəskin silah olmuş və olacaqdır. Məlum olduğu kimi dil milli mədəniyyətin bir formasıdır. Dilimizin özünəməxsus xüsusiyyətləri, zəngin qramatikası və folkloru vardır.

Hazırda ana dilimiz əbədi, siyasi və texniki terminlərlə daha da zənginləşmiş, elmi şəkildə geniş tədqiq olunmuşdur. Sevindirici və fəxr etməli bir haldır ki, Birləşmiş Millətlər Təşkilatında qəbul edilmiş 500 dünya dili arasında Azərbaycan-dili də rəsmən tanınmışdır. Doğma dilimizin tədrisinin genişləndirilməsi gələcək kadrların hazırlığında, milli dövlət quruculuğunun möhkəmləndirilməsində və yeni nəslin milli ruhda tərbiyəsində xüsusi əhəmiyyətə malikdir. Ona görə də təhsil ocaqlarında azərbaycan dilinin tədrisinə xüsusi diqqət yetirilməlidir.

Ana dilimizə soyuq münasibət bəslənilməsi ilk növbədə bizim tarixi qaynaqlara dövlət və cəmiyyət təcrübəmizə istinadən irəli sürüb əsaslandırdığımız azərbaycanlığımıza ziddir. Azərbaycançılıq isə istiqlal ideologiyasıdır.

Azərbaycanın suverenliyi milli prinsiplərə əsaslanır və azərbaycançılıqda onun ideoloji prinsipləri təsbit olunur. Azərbaycan dili milli özünüdərk, vətənpərvərlik, milli şüur, millətin öz soy-kökünə qayıdışı, milli mənlik şüurunun formalaşması deməkdir. Dilimizə biganəliyimiz imperiyapərəst qüvvələr üçün faydalıdır. Yzeyir Hacıbəyov vaxtı ilə yazırdı: "Gözlər var ki, dünənə qədər əsir və qul olan bir





milləti bu gün sərbəst görmək istəmir, qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün hakim deyil, yalnız müstəqil və azad olmasını qəbul etmək istəmir."

Bu kəlmələrdən süzülən həqiqət siyasi əhvali ruhiyyəni coşdurmaq üçün populizmdən, insan duyğularını ehtizaza gətirmək üçün söylənilən ideoloji ehkamdan çox-çox uzaqdır. Millətin azadlığı onun dilindən başlanır. Bu dili qorumaq, zənginliyini nəsillərə çatdırmaq ümumi işimizin tərkib hissəsi olmalıdır.

Ana dilimizin saflığı uğrunda ön cərgədə gedən şairin bir çox şerlərində od tutub yanan, haqsızlıqlara meydan oxuyan bir millət fədaisinin qəzəbi duyulur. **"Laylam mənim, nərəm mənim"** şerində o, bunu daha güclü ifadələrlə əks etdirmişdir:

**Mənim dilim Kür çayıdır**
**sərhədləri,**
**qayaları qıra-qıra,**
**Axıb gəlir min illərin ürəyindən.**
**Yol götürür, qol götürür**
**Ceyhun, Seyhun çaylarından,**
**Yeniseydən, Gültəkindən.**

**Elə bilmə onun kökü**
**tək Muğanda, ya Mildədir.**
**Borçalının, İsfəhanın, Naxçıvanın, Beyləqanın,**

**Dəmir qapı Dərbəndin də**
**naxışları bu dildədir!**

Bir həqiqəti unutmaq olmaz ki, ədəbiyyat tarixi birbaşa dil tarixi ilə bağlı olmuşdur.

Çox güman ki, türklərin əvvəlcə bir dili və ədəbiyyatı olmuşdur. Zaman keçdikcə qohum dillər yaranmış və eyni kökdən olub bir-birinə yaxın olan ədəbiyyatlar meydana gəlmişdir. Şairin sadaladığı çay, yer adları öz qaynağını qədim türk ədəbiyyatının ilk qaynağından-Orxan-Yenisey abidələrindən götürür. Şairin hər misrasında sanki bir tarix yatır:

**Öz dilini sən qala bil!**
**Qərbə, şərqə işıq salan**
**Füzulini sən qala bil!**
**Sağdır dilim,**
**Deməк sağdır şərafətim, ləyaqətim.**
**Sağdır demək,**
**milyard yaşlı məmləkətim.**

XVII əsrə qədər sərhədlərin sabit olmaması və əlaqələrin möhkəm olması, bir çox şairlərin digər türk dövlətinin ərazisində məskunlaşıb orada yazıb yaratmasına imkan vermiş, Yunis İmrə, Nəvai, Nəsimi, Baburşah, Xətai, Füzuli kimi böyük söz ustaları özlərini eyni dilin, eyni ədəbiyyatın nümayəndələri hesab etmişlər. Sözsüz ki, dilçiliklə bağlı mülahizələr, türk dilinin haçalanaraq qollara ayrılması şairi düşündürmüş, o, bütün mübahisələri dilçilərin öhdəsinə buraxmışdır:





**Qoy dilçilər öcəşsinlər,**
**yoxdur bəhsə meylim mənim.**
**Heç bir dildən əskik deyil**
**bəşərin dil ağacının**
**şah budağı dilim mənim!**

**Yıxılır nə qədər imperiyalar!**
**Mənim sarsılmayan imperiyam - dil.**
**Təkcə cümlə deyil, təkcə səs deyil,**
**Xalqımın gözünün odu, ziyası,**
**canı, şah damarı, arteriyası,**
**ən böyük mirasım sabahkı nəslə!**

Xəlil Rza Ulutürkün manqurdlara, öz dilini bilməyənlərə nifrəti daha kəskindir:

**Kim qorumur öz dilini,**
**itsin mənim gözlərimdən ilim-ilim,**
**O sahili bu sahillə birləşdirən**
**polad körpüm, qılıncımdır,**
**günəşimdir mənim dilim!**

Xəlil Rzanın 1961-79-cu illər arasında yazıb tamamladığı bu şerdəki arzu və istəkləri 1995-ci il noyabrın 12-də gerçəkləşdi. Xalq referendum yolu ilə öz mövqeyini nümayiş etdirərək Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması müddəasının tərəfdarı olduğunu bildirdi. Uzun illər boyu ana dilimizə qarşı edilmiş haqsızlıqlar aradan qaldırıldı, onun hüquqları qorundu, cəmiyyətdəki mövqeləri tam bərpa edildi.

Xəlil Rza Ulutürkə rahatlıq verməyən, uğrunda çalışdığı dilimizin təmizliyi, sözdən qızıl gül ətri gəlməsi tələbi ilə yazarlara müraciəti, dilçiliyin ən ümdə problemləri bu gün müvəfəqiyyətlə həll edilməkdədir.

**Dilin qızıl yatağı, hikmət xəzinələri.**
**Açılmamış, açılmış lüğət xəzinələri.**
**Cingiltili samitin igid cəsur xilqəti.**
**Qanadsız kar samitə qanad verən cürəti!**

Bu gün Azərbaycan dilinin özünəməxsus kamil qrammatik quruluşu, hikmət xəzinəsindən götürülmüş zəngin söz fondu vardır.

2001-ci il iyunun 18-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. Fərmanda deyilir ki, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Müstəqil dövlətimizin rəsmi dili sta-





tusunu almış Azərbaycan dilinin geniş tətbiq edilməsi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin nəticələrinin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur. Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir.

Bütün bunlarla əlaqədar olaraq respublika prezidenti "Azərbaycan Respublikası Prezidentinin Yanında Dövlət Dil Komisiyası" yaradılması haqqında qərar vermişdir.

Gözlərimdə sənsən Ziya,
Döşdə tarım, - Poeziya!
Alatoran kamerada,
Əl fanarım - Poeziya!

Nə yetiməm, nə yetimsən,
Şir ürəkli millətimsən.
Cürətimsən, qüdrətimsən
İftixarım - Poeziya!

Meydanda hər çağırışa,
Getməsəydik daim qoşa,
Dözərdimmi qarlı qışa,
İlk baharım - Poeziya!

Öyünməsin o gözü qar,
Sənki varsan, baş tacım var.
Hanı dəmir-beton divar?
Laləzarım - Poeziya!

İncimәsin Firəngizim,
O əzizim, sən əzizim.
O adaxlım, iki gözüm,
Sən ilk yarım - Poeziya!

*/Xəlil Rza Ulutürk/*





# Xəlil Rza poeziyasında mənəvi həyəcanla poetik düşüncənin kosentrasiyası

**"Poeziya dünyasının mənəm bircə hökümdarı,**
**Cüt gözümdür nurlandıran, neçə milyard ulduzları."**

***/Xəlil Rza Ulutürk/***

Erminq Kristi yazır ki: "Poeziya real gerçəkliyin nə imitasiyası, nə də bu və ya digər dərəcədə şərhidir. Poeziya öz özlüyündə daha yüksək dərəcədə bir gerçəklikdir.

O, özündə adilik, bayağılıq pərdəsini qaldırmaq cəhdini təcəssüm etdirir və elə bir müdafiə mexanizmini" nümayiş etdirir ki, onun köməkliyilə bizim təfəkkürümüz "gerçəkliklə" təmasda olur. Daha kamil bədii əsər gerçəklikdən əmələ gələn, daman "qan laxtasıdır" ki, oxucunun təxəyyülündə adi bir qovuqcuq kimi "partlayır".Fikrimcə, xoşbəxt o şairdir ki, sözün qüdrəti ilə öz poetik düşüncələrini aydın, yığcam və maraqlı izah etməyi bacarır. Sözlə dolğun fikir söyləmək məharəti Xəlil Rza Ulutürkün poeziyasına xas olan keyfiyyətlərdən biridir. Azad insan obrazını özünəməxsus cəsarətlə tərənnüm edən Xəlil Rza onu mübariz, əyilməyən,

sınmayan görmək istəyir. Çünki azad insan özünü bütöv halda görən insandır. Bu cür insanlar öz mənəvi azadlıqlarına nail olmaq üçün bütün maneələri, keçilməz sədləri dəf etməyi bacaran insanlardır. Azad insan özünə dözümlülük, sarsılmazlıq təlqin edib fikrində qətiyyətli olduğunu praktiki baxımdan sübut edən insanlardır. Şair "Sarsılma!" - şerində bunu əqli idrakın ən ümdə məsələsi kimi təhlil edib heç nəyin asanlıqla əldə edilmədiyini şərh edərək işıqla-zülməti, bunların timsalında xeyirlə-şəri üz-üzə qoyur:

**Hansı vaxt asanca doğubdur işıq?**
**Hansı vaxt zülmətlə çarpışmamışıq?**

**Bəs sən nə bilirdin? Elə bilirdin:**
**Həyat şərbət dolu qızıl kuzədir?**

**Xayır, bambaşqadır onun düsturu:**
**Beşikdən qəbrəcən mübarizədir!**

**Poladlaşmayıbsa dişin dırnağın,**
**Əl çək bu dünyadan get beşikdə yat.**

Mübariz, azad insan şairin fikrincə beyninə yanılış fikirlər yeridilməsi mümkün olmayan, məqsədi, amalı ədalət və bərabərlik olan, sərbəst düşüncə tərzi ilə öz fikrini





ifadə edən insandır. Azad, mübariz insan zamanla döyüşən şair Xəlil Rza Ulutürk özüdür.

Onun heyrətlə özündə müşahidə etdiyi bircə şey varsa, o da qorxu ilə qorxusuzluq arasında yaşamasıdır.

Doğrudur, şairdə qəribə də olsa güclü özünətəlqin hissləri var. Lakin qorxu ilə qorxusuzluq arasındakı düşüncələri onu oxucuya daha maraqlı bir insan kimi təqdim edir. Hər sətirindən mübarizlik süzülən misralar misri qılınca çevrilib qorxaqlara, vəzifə düşgünlərinə, namərdlərə doğru çevrilir. Bu məqsədi aydın, özü büsbütün mübarizlilik simvolu olan Xəlil Rzanın - inam və inaddan yoğrulmuş bir şair duyğusunun harayıdır. Hər kəlmənin arxasından sinəsini haqsızlıqlara sipər edən şairin obrazı boylanır:

**Mən qorxuyla qorxusuzluq arasında yaşayıram,**
**Çovğunlarda qanad çalan bir tərlana oxşayıram.**

**Buz dağını yarıb keçən buzqıranlar mənə bənzər,**
**Əjdahanı boğazlayan qəhrəmanlar mənə bənzər.**

**Əfəlliyi misginliyi kəsib atır xıncım-xıncım**
**Söz xəncərim, söz qılıncım.**

**Cismimdə bir insan gücü, ruhumdasa min pəhləvan,**
**Mərəz qorxur, ölüm qorxur iradəmdən, inadımdan.**

*/"Qorx! ... Qorxma!"/*

Şair üçün bu dünyada daha dəhşətli qorxu layiq ola bilməmək qorxusudur. Bu qorxu başqa qorxulara bənzəmir və şairi şərəfli ömür yolunda daha cəsur olmağa çağırır. Vətən çörəyinə-müqəddəs türk çörəyinə layiq ola bilməmək qorxusu şairi həyəcanlandırır:

**Nə küləkdən çəkinirəm, nə kələkdən, nə fələkdən.**
**Müqəddəs Türk çörəyinin dadı-duzuna**
**Layiq ola bilməməkdən -**
**Bircə bundan qorxuram mən.**

Saf, təmiz bir etiraf... Şair dünyasının ləkəsiz güzgüsündən görünən məsləkə sadiqlik onu zirvələrə ucaldır. Məsuliyyət hissinin böyüklüyünü dərk edən hər bir insana qorxu qarşısında aciz qalmamağı tövsiyyə edən Xəlil Rza qorxu hissinə nifrət etdiyini gizlətmir, onu mikrobdan da təhlükəli hesab edir.

**Qorxu hər mikrobdan təhlükəlidir,**
**Söndürür idrakı, korşaldır beyni**

**Ac qal, yalavac qal,daş ye, dəmir ye,**
**Yedirmə qorxuyla şir ürəyini!**

**Qorxma qiymətini ala bilməsən,**
**Ömrünü məşəl tək tulla zülmətə.**





Öyüd, tövsiyyə və tələb bir-birini əvəz etdikcə hər sözün məna dəyərində insanı düşündürən, ona dəyanətli olmağı təlqin edən fikrlər yaranır.

**Qorxma vəzifəni itirməyindən,**
**Ucalmaq uğrunda enməkdən qorxma!**

**Qorx ki, nifrətini şikəst edələr,**
**Qəzəb uda-uda, qeyz uda-uda.**

**Qorx ki, bu dünyada özündən əvvəl,**
**Mərdliyin qoyula qara tabuta.**

Xəlil Rza poeziyasından tufanlı, təlatümlü günlərimizin əks-sədası, şimşək kimi çaxan etiraz hayqırtısı və ən nəhayətdə, zamanın sınağından alnı açıq, üzü ağ çıxan bir insanın qələbəsi duyulur.

Xəlil Rza Ulutürkdə onu çoxlarından fərqləndirən əqli idrak qabliyyəti, çılğın emosiya ilə yazılan mübariz şerlərindəki inadlı çağırışa oxucularını cəlb etmək bacarığı heyrət doğurur.

Şair öz şerlərində çox zaman müəllif kimi deyil, intuitiv duyum hissi ilə yaxşını pisdən seçən, həqiqətlə yalanı üz-üzə qoyub təhlil edən, haqsızları söz qüdrəti ilə müttəhim kürsüsündə oturdub açıq ittiham edən hakim kimi çıxış edir. İmperiyapərəstlərə, qəsbkarlara və milli satqınlara

olan qəzəb hissi onun təşnəli qəlbindən, alovlu misralarından vulkan kimi püskürür. Bu püskürtüdə Xəlil Rza poeziyasına hakim kəsilən azadlıqsevərlik ruhu, yüksək amallara can atan bir insanın mənəvi dünyası daha aydın görünür:

**Cəhənnəmdə yaşaram, sorma haralıyam mən.**
**Satqınların əlindən yaman yaralıyam mən.**

**Satqınlar görmüşəm ki, bənd oluban bir himə,**
**Kəbinsiz gəlin kibi Zəngəzuru bəxş edib**
**umusal düşmənimə.**

**Məzar daşlarınacan satmış hər şeyi satmış,**
**Ləyaqəti, qeyrəti, evi eşiyi satmış.**
**Atasının ruhunu, əzmini qururunu,**
**Babasının qorunu, hələ sümüklərini.**

**Yeni dünyasını da, boş qafa tasını da**
**Satıb, bir yolluq satıb...**

***("Milli satqın")***

Xəlil Rza poeziyasına yaxından bələd olan oxucu onun polad iradəsi qarşısında sarsılmaya bilmir. Şimşək kimi çaxan kəlmələrin işığında şairin öz sözü ilə desək "yüksəldikcə alçalan içiboş məlunlara", "yad qatara təkər,





öz nəfsinə nökər olanlara", "bütün imtiyazları yeyib doymayanlara", "qanlı göz yaşlarına, ildırım fəryadlara" məhəl qoymayanlara qarşı mübariz, azad ideyalı bir insan hayqırır. Bu hayqırtıda insanları hər cür acizlikdən uzaqlaşdıran, ona şair cəsarətindən mənəvi qida verən, süstlük, qorxaqlıq buxovundan azad edən sarsılmaz güc və tələb vardır. Bu qüdrətli şairin ruhən sağlamlığı və saflığıdır. Bəşəriyyətin bütün dövrlərində ruhi sağlamlığı olan insanlara ehtiyac duyulmuşdur. Bu cür insanlar zamanın tələbini dərk etmiş, insanlara həqiqət yolunu göstərmək üçün onlarda əzmkarlıq və döyüş ruhu aşılaya bilmişlər:

**Vermə döyüşə ara,**
**Baxma imtiyazlara!**
**Zirehlə iradəni!**
**Artır əzmi iki qat.**

**Diş dibində zəhərdən, öddən heç bir ehtiyat!**
**Sənin fil ürəyin var, qurddan heç bir ehtiyat!**
**Yalnız saxta şöhrətdən, ucuz addan ehtiyat.**
**Ehtiyatdan ehtiyat!**

***("Heç bir ehtiyat")***

Xəlil Rza poeziyasına yaxından bələd olan oxucu onun öz şəxsi nümunəsində təəssübkeşlik, soy-kökdən gələn

inadkarlıqla nəyi isə sübut etmək cəsarətinə müşahidə edə bilər. Bu xüsusiyyətlər şairin iç dünyasını psixoloji cəhətdən açmağa yardımçı olur. 70 il ərzində beyinlərdə kök salmış mütilik buxovunu parçalamağa hazır olan şair yaşadığı zaman kəsiyində bütün gərginlikləri, baş verən hadisələrin kökündən doğan prosesləri, geosiyasət obyektinə çevrilən doğma vətənimizin dərdlərini xüsusi diqqətlə təhlil edir. Yalvarış, şikayət, göz yaşı Xəlil Rza dünyasına yaddır.

Məhz elə buna görə də xarici aləmlə təmasdan doğan daxili mənəvi həyəcanın barışmazlıq ifadə edən poetik düşüncələrlə konsentrasiyası şairin mənəvi psixoloji dünyagörüşünü açmaqda həlledici rol oynayır.





**Möcüzəymiş bu həyat:**
**Beyin - mikro kainat.**
**bir kilo üç yüz qram bu balaca xilqətin**
**Nə qədər gücü varmış!**
**Bir insan idrakına min-min aləm sığarmış.**
**Özün yaxşı bilirsən, nə pələngəm, nə şirəm.**
**Yalnız kiçik pələngin-sözlə pəncələşirəm,**
**Yıxıb dizim altına qoyanda gəncləşirəm!**

**Əllərimə baxıram... əllər hələ bir yana,**
**Zəncirli biləklərin nə qədər gücü varmış**
**Zəncir şer yazarmış,**
**Qandal dastan qoşarmış!**

**Gözlərimə baxıram, sənin gözlərin ayna,**
**Gecələr səmaya dal, ulduzunam, ayınam.**
**Bir cüt gözün nurunda, dörd okean çimərmiş,**
**Çıraqban kəhkəşanlar ondan işıq əmərmiş.**
**Enərmiş,**
**Kipriyimin altında gecələrmiş.**

*/Xəlil Rza Ulutürk/*

# Fəlsəfi düşüncələr labirintində dolaşan "Sorğular", cavablar...

Təqribən üç min ilə yaxındır ki, filosoflar bu suala dönə-dönə müraciət edirlər: insan kimdir, haradan gəlir və hara gedir? Hind filosofları insan konsepsiyasının təhlilində onun daxili aləminə daha çox diqqət yetirmişlər. Yunan filosoflarının maraq göstərdiyi əsas məsələ isə insanın ətraf gerçəklikdəki yerini müəyyənləşdirməyə çalışmaları olmuşdur.

Çin filosoflarını insanın daxili təbiəti, həmçinin onu əhatə edən real gerçəklik deyil, insan münasibətlərinin öyrənilməsi maraqlandırırdı.

Məlum olduğu kimi insanın öz əlləri ilə yaratdığı hər şey əvvəlcə onun beynində fikir halında yaranır. Məhz buna görə də fikri yaradıcılıq və onun beyin ilə əlaqəsi məsələsi həmişə bəşəriyyəti düşündürmüş və müasir elmin, fəlsəfənin qarşısında geniş müzakirə obyektinin yaranması ilə nəticələnmişdir. Doğrudan da beyində fikir və hisslər harada, necə doğulur? Hələ üç yüz il bundan öncə insanın şəxsiyyəti ilə onun beyninin xüsusiyyətləri arasındakı əlaqəni görən fransız alimi və filosofu Rene Dekart yazırdı: "Mən özümü fikir kimi bilirəm, beyin kimi bilmirəm."





Bəs fikri yaradıcılıq necə baş verir, onu beynin hansı xüsusiyyəti ilə əlaqələndirmək lazımdır!

Psixoloji və fəlsəfi mahiyyətinə görə bu proses qismən aşkar edilmişdir. Hələ eramızdan əvvəl Platon özünün "Dialoq" əsərində göstərmişdir ki, fikri yaradıcılıq təfəkkürün daxili dialoqu əsasında baş verir. Bu fikrə orta əsrin məşhur türk filosofu Əl-Fərabidə (870-950) də rast gəlmək olur.

XVIII əsrin görkəmli filosofu İmmanuel Kant düşüncəni "özünü eşitmək" bacarığı kimi izah etməyə çalışırdı.

Bəs Xəlil Rza poeziyasında insan, onun idrakı haqqında fikrlər öz həllini tapa bilmişdirmi?

Xəlil Rza Ulutürk düşünən insanı dünyanın, ərzin mehvəri kimi qiymətləndirirdi. O, özünün "Sorğular" şerində fəlsəfi düşüncələr labirintində dolaşdığını öz-özünə verdiyi suallardan dinclik tapa bilmədiyini etiraf edir:

**Nə gündüz əl çəkir, nə də gecələr,**
**Hey sorur beynimi inad sorğular.**
**Tapsam cavabını bəlkə dincələm,**
**Tapmasam içimdə dərya boğular.**

**"Harda", "Nədən ötrü?", "Kimlər?", "Bəs haçan?"...**
**Mən bu daş sədləri devirməliyəm.**
**Cavabı astaca, pıçıltıyla yox,**
**Ucadan, mərdanə, şax, verməliyəm!**

Xəlil Rza Ulutürk insanı alilәşdirmәklә bәrabәr ona böyük mәhәbbәt ifadә edir.

Mәlum olduğu kimi insanın alilәşdirilmәsi, onun tanrının tәzahürünün (emanasiyasının) nәticәsi kimi öyrәnilmәsi Şәrqdә vә Qәrbdә insan konsepsiyasının başlıca mahiyyәtlәrindәn biri olmuşdur.

**Uzaqda axtarma mehvәri, oxu.**
**Düşünәn insandır әrzin mehvәri.**

Xәlil Rza verdiyi suallarla, tapdığı cavabları gecә ilә gündüzün sinxronluğu anlamında hәll etmәyә çalışır. Mübhәm sualları gecәlәrә, cavabları isә idrakın işıqlı sәhәrinә bәrabәr tutur.

**Suallar-idrakın gecәlәridir,**
**Cavablar-idrakın al sәhәrlәri.**

Şair qәlbinin işığı onun intuitiv duyum hissi ilә birlәşәrәk zәkanın tәhlilinә çalışır:

**Zәkadır Dünyanın ilk vәtәndaşı,**
**Fәxr edirik onun bәrәkәtilә.**
**İllәrlә ölçülmür zamanın yaşı,**
**Ölçülür idrakın әzәmәtilә.**





Xәlil Rza Ulutürk zaman yarandığı gündәn idrakın meydana çıxdığı qәnaәtinә gәlir. Lakin mәlum mәsәlәdir ki, bu barәdә konkret fikir söylәmәk çox çәtindir. Bunu şair özü dә etiraf edir:

**Vaxt olub cavabı düz vermәk üçün**
**Başından keçiblәr başı olanlar.**
**Güllәlәr tuşlanıb bәbәklәrinә,**
**Yenә bacarmayıb susmağı onlar.**

Xәlil Rza Ulutürk beyin, şüur, zaman problemlәrinin hәlledilmәzliyi qarşısında mәğlub olmaq istәmir.

Beyin haqqında şairin söylәdiyi misralar diqqәti cәlb edir:

**Beyin-insanlığın ilk xәzinәsi,**
**Vaxt olur açılmır bu böyük mәdәn.**
**Suallar, cavablar nәdәn yaranır?**
**Şüur da zamanın hәrәkәtindәn.**

Maraqlıdır ki, kәllә qutusunun içәrisindә yerlәşәn, milyardlarla sinir hüceyrәlәrinin qanunauyğun әlaqәlәri sistemindәn ibarәt olan, bütün bәşәr mәdәniyyәtini yaradan insan beyni tәbiәtin әn sirrli törәmәsidir. Onu xәzinә kimi qiymәtlәndirәn şair, beyini böyük mәdәnә bәrabәr tutur, çox zaman bu mәdәnin açılmadığını vurğulayır. Hәr halda etiraf etmәk lazımdır ki, bir çox elmi

sahələrin bir-biri ilə əlaqəli şəkildə fəaliyyəti-xüsusən təfəkkür və beyin haqqında toplanmış biliklərin vahid bir sistemdə birləşdirilməsi elmin bu qaranlıq sahəsinin tədqiqində çox əhəmiyyətli ola bilər. Şüurun zamanın hərəkətindən doğulduğunu söyləmək isə mümkün variantlardan hesab edilə bilməz. Çünki insan hələ bu günə qədər fikirlərin beyində necə doğulduğunu, hisslərin necə yarandığını və hətta öz "yaddaş proqramı"nı necə "canlandırdığını" bilmir.

Bəşəriyyət üçün çox böyük əməli və nəzəri əhəmiyyət kəsb edən bu məsələnin öyrənilməsi təkcə filosoflardan deyil, həm də fizioloqlardan böyük zəhmət və səy tələb edir. Bu cür ilkin addımlar isə artıq ilk müvəffəqiyyətə zəmin yaradır. Amerika Neyrofizioloqu R.Sperrinin baş beyin yarımkürələri arasında funksional assimetriya (vəzifə bölgüsü) olması ilə bağlı kəşfi 1981-ci ildə alimin Nobel mükafatına layiq görülməsinə səbəb oldu.

Cəmiyyətdə gedən prosesləri izləyən şair, idealın inqilabi praktikaya təsirini onun güclü, sarsılmaz idrakı ilə əlaqələndirir:

**İdrak zəlzələsi, baş inqilabı...**
**Bu qüdrət zamana, tarixə tanış.**
**Böyük sorğuların cavabı bəzən,**
**Sözlə yox, qılıncla zorla alınmış.**

**Çadralı, maskalı, bürüncəli yox,**
**Açıq həqiqətdir sevgilim mənim.**





**Neçə sorğuların cavabı şerim,**
**Qalsam, bayrağımdır, ölsəm-vətənim.**

Xəlil Rza Ulutürkün həyat fəlsəfəsindən doğan sualları qəribə bir sonluqla bitir. O, öz oxucusunun bütün diqqətini qəflətən özü üzərində cəmləşdirir. Düşünən oxucu dərhal dərk edir ki, şair sorğuların bütün cavabını insanın özündə axtarmağı tövsiyə edərək, obyekt kimi özünü nişan verir.

**Qarşımda qara dağ, əlimdə gülünc,**
**Alnımda alovlu tər muncuqları...**
**Külüngün tozuna büründüyümdən,**
**Mən boyda cavabı görmür çoxları.**

Xəlil Rza Ulutürk insanlığa qarşı çevrilən bütün vəhşilərə öz etirazını bildirir. Özünə verdiyi suallar içərisində gəldiyi nəticələrdən biri də insan xislətinə hakim olan vəhşilik, qəsbkarlıqdır.

Şair insanın xilqətində olan bu anlaşılmazlıqlara münasibətini belə ifadə edir:

**Təbiətin şah əsəri sayılsa da insan oğlu,**
**Həm vəhşidir, həm də kamil, həm oğrudur,**
**həm də doğru.**

**Bir az çətin dərk ediriz, bir az çətin, qanunları.**
**Zaman-zaman eyniləşir təbiətin qanunları,**
**cəmiyyətin qanunları.**

**İnsan ali bir xilqətdir, insan-köpək, ac canavar.**
**Onda Hegel əzəməti, onda Hitler iştahı var.**
**İnsan cəsur, insan aciz. Biri comərd, biri xəsis.**
**Kimsə mələk, kimsə iblis. Mən bir damla,**
**sən bir dəniz.**

**Millətlər də böyləcədir, biri uca, biri alçaq.**
**Lütfükar da, qəsbkar da hələ xeyli yaşayacaq.**

***/"Doqquzuncu nida"/***

Şərqin böyük filosofu və mütəkkəlimi Əbu Halid Məhəmməd ibn Məhəmməd əl-Qəzzali (1058-1111) özünün "Kimiyayi-səadət" əsərində insanın varlığı və xisləti haqqında düşüncələrində göstərirdi ki, insanın daxilində bir tərəfdən heyvan və şeytan xasiyyətləri, o biri tərəfdən isə mələk sifətləri toplanmışdır. Bu sifətlərdən hansının onun mahiyyətini təşkil etdiyini anlamağa çağıran Qəzzali yazırdı: "Əgər özünü tanımaq istəyirsənsə, bil ki, səni iki şeydən yaradıblar. Biri bu zahiri cəsəddir ki, ona bədən deyirlər və onu zahiri gözlə görmək mümkündür. O birisi batini mənadır ki, ona ruh deyirlər, ürək deyirlər, can deyirlər və onu daxili bəsirətlə dərk etmək olar, zahiri gözlə görmək mümkün deyil. Sənin həqiqətin həmin batini mənadır... və biz onu ürək





adlandıracağıq. Ürəyin cövhəri bu aləmdən deyil və bu dünyada qəribdir."

Böyük söz ustadı Nizami Gəncəvi də insanın təbiəti ilə bağlı fikirlərdə eyni mövqedən çıxış etmiş, özünün məşhur "Sirrlər xəzinəsi"nin əvvəlində bu məsələnin şərhini verməyə çalışmışdır. Nizami insanlara pis xislətlərdən uzaq olmağı tövsiyyə etməklə bərabər, qeyd edirdi ki, insanın dünyadakı həyatı elə olmalıdır ki, insan həyatdan gedəndə təşvişə düşməsin, səfərin sonunda özünü əliboş görməsin. Buna nail olmaq üçünsə yaxşı işlər görmək, pis əməllərdən uzaq olmaq lazımdır.

Xəlil Rza Ulutürkün fəlsəfi aspektdə yazılmış bəzi şerlərində bu məsələlərə böyük diqqət yetirilmişdir. Onun daxili dialoqu insan adlı bir varlığın ikili aləmini güzgü kimi əks etdirir.

**Beyinlərdə bir üsyan,**
**Ürəklərdə bir ümman,**
**biləklərdə güc-qüvvət,**
**qələmlərdə qətiyyət,**
**kipriklərdə göz yaşı.**
**XƏLİL RZA dayandı bayraqlarla yanaşı!**

**Əl-əl gəzdi kitablar:**
**"Məndən başlanır Vətən"**
**"Qollarını geniş aç!"**
**"Krasnadon qartalları",**
**"Bahar gəlir" dünyaya**
**Xəlil Rza baharı.**

*/Xəlil Rza Ulutürk/*





# Misralarda dalğalanan bayrağımız

Azərbaycan Respublikasını təmsil edən dövlət bayrağımız mürəkkəb tarixi keçmişə malikdir. İlk dəfə bu üç rəngli bayraq 1918-ci ildə Azərbaycan Demokratik Respublikası tərəfindən müstəqilliyimiz şərəfinə qaldırılmışdır. 1920-ci ildə bolşeviklərin hakimiyyətə gəlişi ilə əlaqdar bayraq dəyişmişdir. Sonralar öz bayrağını yaşadan xalq 1988-ci il Bakı mitinqləri zamanı bu bayrağı yenidən qaldırmışdır. Ardınca ilk dəfə Naxçıvan Muxtar Respublikası bu bayrağı qəbul etmiş, sonradan isə Azərbaycan Dövlət bayrağı kimi qəbul edilmişdir.

Xəlil Rza Ulutürkün 1993-cü ildə yazdığı "Gerbimiz-qəlbimiz" şerində üçrəngli bayrağımız və gerbimiz böyük məhəbbətlə vəsf olunur, bayrağımızda əks olunan rənglərin rəmzi mənası şairin söz qüdrəti ilə açıqlanır.

**Sən şəkil yox, nəfəsimsən, axan qansan varlığımda.**
**Hansı rənglər çiçəklənir gör üç rəngli bayrağımda.**
**Yaşıl rəngim, yaşıl bahar, müsəlmanlıq timsalıdır,**
**Göy rəngimdə Türklük yaşar-millətimin amalıdır.**

**Qırmızılıq simvoludur çağdaşlığın, yüksəlişin**
**Vətənimə can verməli mənim əzmim, mənim işim.**
**Cavan palıd mən özüməm, kökü ərzin mərkəzində**
**Kökü burda, budaqları Xan Arazın o üzündə.**

Hamıya yaxşı məlumdur ki, rənglər hissiyyatın, əhvalın, emosiyanın baş verməsində mühüm əhəmiyyətə malikdir. İnsanın həssaslığı ilə bağlı olaraq rənglərin təsir qüvvəsi də müxtəlif cür təzahür edir. Şairin təbiətinə uyğun olan çılğınlığı onun qüdrətli misralarında rəng kompoziyasını-rəng üçbucağı adlanan üç rəngi lazımi səviyyədə əks etdirir. Maraqlıdır ki, İ.Nyuton ağ işığın yeddi cür rəngdən ibarət olduğunu kəşf etdikdən 150 il sonra məlum olmuşdur ki, ağ rəngi yenidən almaq üçün yeddi rəngin olması heç də vacib deyildir. Üç rəngi-qırmızı, yaşıl və mavi rəngləri qarışdırmaqla yenidən ağ rəng almaq olar. Bunlar əsas rənglər - rəng üçbucağı adlanır və əlavə rənglərin heç bir kombinasiyası əsas rəngləri vermir. Azərbaycan bayrağında əks olunan üç rəngin hikməti məhz bundadır.

Bu rənglərin psixoloji baxımdan təsir gücünü ayrı-ayrılıqda təhlil etdikdə şairin fəxrlə "gerbimiz-qəlbimiz" deməsinin mənasını dərk etmək olur.

Hər şeydən öncə qeyd etmək yerinə düşərdi ki, sinir sisteminə tormozlayıcı, tənəffüsə və nəbzə ləngidici təsir göstərən göy rəngin həqiqi məna dəyəri şairin dediyi kimi türkçülüyü ifadə etməklə bərabər, həm də demokratiya rəmzi hesab olunub.

Od və qanla assosasiya olunan qırmızı rəng qıcıqlandırıcı, isti, ən aktiv və enerjili, igidlik və ehrtiraslılıq kimi qəbul edilir. Mərdlik, cəsaurluq, güc və qüvvə rəmzi olan bu rəng fizioloji baxımdan tənəffüs və nəbzi tezləşdirir. Al rəng yaxud al-qırmızı rəng həm də müqəddəslik rəmzi





kimi əcdadlarımızın məişətində, inam və inanclarında özünü göstərmişdir. Bizim eranın VII əsrinə qədər Azərbaycan ərazisində qırmızı rəngin müqəddəs olmasının izləri aşkarlanmışdır. Bayrağımızdakı qırmızı rəng inqilab simvolu kimi qəbul edilmişdir.

Yumşaq, xoşagələn, sükut və sakitlik təəssüratı yaradan yaşıl rəng, gənclik, təravətlilik, sevinc rəmzi olub şüa və meşə ilə assosasiya olunub, milli bayrağımızda islam dininə etiqad etdiyimizi əks etdirir. İnqilabi yolla hakimiyyətə gələn qüvvə, xalqın mənəvi dəyərlərini yaşatmağın simvolunu bu rənglə bildirirdi.

Xəlil Rza Ulutürk hər bir rəngin rəmzi mənasını misralarda ifadə etməklə bərabər, işlətdiyi terminlərdə bənzətmə üsulubndan da istifadə edir. Onun poeziyasında bədii dil həm obrazlı, həm də lazımi ölçüdə ekspressivliyə malikdir. Şair özünü əzəmətli, cavan palıda, səkkizguşəli ulduzumuzu səkkiz cənnət qapısına bənzədir.

Vətənimizin başı üstündə dalğalanaraq mavi səmanın fonunda daha da əzəmətli görünən bayrağımızdakı üç rəngin nurunda gələcək xoşbəxtliyimizi, azad günlərimizi görür, müstəqilliyimizə düşmən kəsilənlərin varlığına təəssüf edirdi:

**Üç zolaqlı bayrağımda mavi, yaşıl, qırmızı nur,**
**Heyhat hələ nur oğrusu durur ey dost, hələ durur.**
**Varlığımda can yerinə qəzəb coşur, qəm qudurur.**
**Dağıl dünya... O qatillər hələ durur, hələ durur.**
**Qurduqları tələ durur.**

*/"Hələ durur"/*

Dünyada xeyirxahlıq, əbədi həyat və çiçəklənmə rəmzi hesab olunan, müstəqil Azərbaycan Respublikasının bayrağına xüsusi bir əzəmət bəxş edən gerbimiz-səkkiz guşəli ulduz xalqımızın və bəşəriyyətin işıqlı gələcəyinə olan inamımızı əks etdirir.

**Səkkiz guşəli ulduzumda, səkkiz cənnət qapısı var,**
**Yalnız oğul qeyrətilə açılacaq bu qapılar.**
**Qızıl sünbül soraq verir, xırman-xırman bərəkətdən,**
**Ərzə bəhrə-bir gedəcək bu müqəddəs məmləkətdən.**

Xəlil Rza Ulutürk poeziyasında yüksək ruh hissindən doğulan, oxucusuna qol-qanad, ümid verən, qüvvətli bir inam hissi var. Odlar yurdundan od alan oğullarımızın şərəf və ləyaqətinə böyük ehtiramla yanaşan şair, bunu öz şerində belə ifadə edir:

**Qabaran tunc köksümüzdür qalxanımız, sipərimiz.**
**Əvvəl-axır qıracağıq qart düşmənin belini biz.**
**Alovlarda, çovğunlarda daim yaşa dolasıyıq,**
**Od yurdunda od tükənsə özümüz od olasıyıq.**

**Yalnız qızıl alovlarla bəzəmədik gerbimizi,**
**Aləm üçün, bəşər üçün məşəl tutduq qəlbimizi.**
**Dedik: bu Yer kürəsində nə qan, nə bir məzar olsun,**
**Məzarlarla gül qoymayaq, cahan özü gülzar olsun!**





**Sən mənə göylərdən verilən qismət,**
**Yanıl yanaqları yandırdı ismət.**
**Hamıdan gizlicə, hamıdan xəlvət,**
**Yaşına-yaşına qurban olduğum!**

**Axmasın gözündən yaş almaz-almaz,**
**Məhəbbət qocalmaz, Günəş qaralmaz.**
**Yüz illər keçsə də, gəncliyi solmaz,**
**On yeddi yaşına qurban olduğum.**

**Kədər ordu-ordu, qəm qoşun,**
**Kül eylər fələyi ahım, qarğışım.**
**De, hansı qüssədən sınıbdır qaşın?**
**Çatılan qaşına qurban olduğum!**

**Mən kiməm?.. Əyilməz bir kədər dağı,**
**Sədaqət ocağı, ümid çırağı.**
**Sən başım üstündə haqqın bayrağı,**
**Ey haqq savaşına qurban olduğum!**

**Uzaq xatirələr toyda-düyündə,**
**Ömür gəldi keçdi darda, sürgündə.**
**Kişilər cahanda seyrələn gündə,**
**Kişi duruşuna qurban olduğum!**

*/Xəlil Rza Ulutürk/*

# Məhəbbət fəlsəfəsindən qopan qığılcımlar

***"Onun məhəbbəti də özü kimi odlu alovlu idi. Bu məhəbbətin böyüklüyü önündə sarsılar, hətta bir qədər qorxardım. Mən həqiqi məhəbbət deyiləndə həmişə düşünmüşəm ki, Xəlilin məhəbbətindən də böyük məhəbbət olubmu?"***

**Firəngiz xanım Ulutürk**

Məhəbbət, eşq fəlsəfəsi mövcud olduğu gündən bu günə qədər zamanın və insan zəkasının süzgəcindən süzülüb, əfsanəyə, nağıla çevrilərək nəsillərə çatıb. Məhəmməd Füzulinin ah-naləsindən alovlanan, göz yaşına dönüb muncuq kimi misraya düzülən eşq fəlsəfəsi dünyanın poetik fəlsəfi fikirləri içərisində ən kamil məhəbbət fəlsəfəsidir. Əgər belə olmasaydı bu yanğıdan korun-korun alışıb kül olanların, Məcnuna çevrilib zəncirlənənlərin ömür dastanı bu günümüzə çatmaz, yaddaşlarımıza həkk olunmazdı.

Xəlil Rza Ulutürkün məhəbbətə həsr olunan şerləri çoxdur. Öz sevgisini aliləşdirən, onu ilahi məqamlara qaldıran Xəlil Rzanın sevgisi deyərdim ki, Platonik sevgi idi. Bu sevgidə məhəbbətin əbədi gözəlliyi-"vəhdəti vücud"u Xəlil Rza Ulutürkün özü idi. Məlum olduğu kimi





böyük yunan filosofu Platon tanrını əbədi gözəllik və ümumi materiya kimi təsəvvür edirdi. Konkret şeylərdən əvvəl gələn bu materiya forma kimi onlarda öz təzahürünü tapırdı. Tanrı bizim bütün səylərimizin, hərəkət və axtarışlarımızın yönəldiyi son məqsəddir. Bu nəzəriyyə Plotin tərəfindən, sonralar erkən müsəlman alimləri tərəfindən, ən nəhayət isə panteist sufilər tərəfindən "vəhdəti vücud" təliminə uyğunlaşdırılmışdır. Xəlil Rza öz məhəbbətini tanrılara bəslənən məhəbbətlərə -bütün tanrıların birliyindən yaranan vəhdətə bərabər tuturdu. Onun şerləri daxili inamdan doğulan, insanı heyrətə gətirən, heyran edən qüvvətli misralardan başlanğıc tapır. Bu misraların qüdrəti ildırım kimi çaxır, oxucunu sarsılmaz bir məhəbbətlə üz-üzə qoyur:

**Xəyyam da məndədir, Hafiz də məndə,**
**Vaqif sevgisiyəm, Sabir səsiyəm.**
**Bütün tanrıları yığ kənara qoy,**
**Bütün tanrıların birləşməsiyəm.**[1]

Xəlil Rza Ulutürk günəş boyda, coşub-daşan qəlbini yalnız öz Firəngizinə vermişdi. Bu məhəbbət məddah şairlərin tərifindən çox uzaq və düşündürücüdür. Şairin qüdrətli kəlmələri bəzilərinin düşündüyü "məhəbbət nisbidir" səddini yerlə yeksan etmiş, əvəzində müqəddəs bir eşq məbədi ucaltmışdır:

1. *Xəlil Rza Ulutürk . Türkün dastanı. Bakı, 2000. səh.515.*

**Keçdi ilk görüşdən otuz il, qırx il,**
**Sən mənim gözümdə adiləşmədin.**
**Hər gün şah dağına ucalır könül,**
**Ey daim zirvədə ulu məbədim!**

*/"Bircəmsən"/*

Qədim mütəfəkkirlərin fikrincə, eşq hər bir dövrdə əsas bir mövzu olduğu halda, Haydegerdən Hüsserliyə yaxud Vitgenşteynə qədər eşq düşüncəsi ya bir heç səviyyəsinə endirilmiş, ya da hər şeyin ağası hesab olunmuşdur.

Fikrimcə, bu fikirlərin hər ikisi təzadlıdır. Məhhəbbət qarşılıqlı olarsa, o güclüdür, birtərəfli olarsa, bünövrəsi hər dəqiqə uça bilər. Deməli, məhhəbətin ən gözəli qarşılıqlı sevgidir.

Xəlil Rza Ulutürk üsyankar şair idi. Məhəbbətini də döyüşə-döyüşə qazanmış, öz yeganə məhəbbətinin polad iradəsinə söykənərək bu vuruşdan qalib çıxması səbəblərini açıqlamışdır. Təmiz etirafı, fikrini sadə, lakin qüvvətli kəlmələrlə ifadə etmək bacarığı onun təbiətindən irəli gəlirdi.

**Bütün vuruşlardan qalib çıxmışam,**
**Çünki sarsılmayan qalamsan mənim.**
**Yalın əllərimlə dağlar yıxmışam.**
**Çünki başım üstə yandırmısan şam.**
**Bəlkə də anamsan, balamsan mənim.**





Şairin fikrincə dünyada ölməz qalan iki anlayış var: Ölməzlik və qəhrəmanlıq. O, məhəbbətin əsrlər keçsə də öz dəyərini saxlayacağına qəlbən inanır və bu inamın işığında kəhkəşana dönürdü. Bu cür nikbin əhvali ruhiyyə və inaddan yoğrulan inam hissi onu oxucu gözündə ucaldır:

**Nə gözəllik ölüb, nə qəhrəmanlıq,**
**Sağdır Kərəm eşqi, Məcnun eşqi sağ.**
**Hansı bir Fərhadsa süd arxı üçün**
**Hansı bir dağısa parçalaycaq.**

Misralardan göründüyü kimi məhəbbətin əbədiliyi şairi düşündürmüş, o, bu qənaətə gəlmişdir ki, bəşəriyyətin əşrəfi olan insan nə qədər ki var, məhəbbət də olacaqdır. Məhəbbət insan mənəviyyatını hər cür çirkinlikdən təmizləyir, o gözəllikdən doğulur, qalibiyyət qəhrəmanlıqdır. Məhəbbət mübariz insanların pak duyğularından doğulanda daha gözəl, daha möhkəm, daha uzun ömürlü olur.

**Qanıma keçmisən... mübarizədən**
**Aldığım zövq... ilham, pak duyğu kimi,**
**Sənə vururam hər gün təzədən**
**21 yaşında olduğun kimi.**

Şairin xanımı Firəngiz Ulutürkün dediyinə görə, Xəlil Rza onu böyük məhəbbətlə sevdiyini etiraf etdiyi kimi,

qısqanclıq hisslərini də gizlədə bilmirmiş. "O məni geydiyim paltarların rənginə belə qısqanır, ucuz, sadə paltar geyməyimi məsləhət bilərdi".-deyən Firəngiz xanım Ulutürk bunun əsl səbəbini Xəlilin onu sonsuz bir məhəbbətlə sevməsində görürdü.

**Qırmızı geyinib sən çıxma evdən.**
**Qorxuram od tutub alışa dünya.**
**Mavi geyinəndə cilvələnmə çox,**
**Qorxuram özünü göylər tanıya.**

**Sən ağ geyinəndə ehtiyatlı ol!**
**Səadət boynuna biçilir ey gül,**
**Qorxuram qoşulub ağ buludlara,**
**Uçasan, qalxasan ulu qatlara.**

**Qara geyinəndə işıq saçırsan,**
**Qaranlıqda yanan ulduzlar kimi.**
**Nə qədər gedirəm, uzaqlaşırsan,**
**Əlim ulduzlara çata bilərmi?**

**Amandır bir azca sadə geyin sən,**
**Amandır bir azca ucuz geyin sən.**
**Onsuz da sərməstəm, al da geyinsən.**
**Qədək də, ipək də, şal da geyinsən.**[1]

*1.Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri. Bakı 2001, səh. 322.*





Xəlil Rza Ulutürk üçün onun məhəbbəti hər rəngdə gözəldir; qırmızı, mavi, ağ, qara, qızılı... Lakin onun təəssüf etdiyi bir şey var... Könlünü ən gözəl libas kimi məhəbbətinə bəxş edə bilməməsidir. Şairin söz seçimi, işlətdiyi ifadələrlə bu fikrimi oxucularına çatdırmaq bacarığı heyrət doğurur:

**Mən dərzi olsaydım...kirpiklərimi**
**İynə-sap edərdim, başdan keçərdim.**
**Bütün geyimləri atıb bir yana,**
**Sənə öz könlümü paltar biçərdim.**

Xəlil Rza Ulutürk vətəni bu qədər sevməsəydi ona təkcə məhəbbət şairi deyərdim; vətən şairi, xalq şairi deməzdim. Onun şerlərində məhəbbət fəlsəfəsi cəsarət hünər, dəyanətdir. Lefortovoda beton divarlarla "söhbətləşən" Xəlil Rzaya səadət bəxş edən, onu darıxmağa qoymayan da məhəbbətdir. Firəngiz onun ilk və son məhəbbətidir.

**Mən bir dağ qartalıyam.**
**Sən uca şah dağımsan.**
**Mənim dirilik suyum,**
**Tükənməz bulağımsan.**[1]

*1. Xəlil Rza Ulutürk. Davam edir-37... Bakı, 1992.*

*yaxud*

**Həbs evində günlərimi**
**bu gün saydım bircə-bircə**
**Elə günüm olubmu ki,**
**Sənsiz gələ, səssiz keçə?**

**Sevincimdə, ahımdasan**
**Nəfsimdə, bağrımdasan**
**Kirpiyimdə, yuxumdasan,**
**Səhər-axşam, gündüz-gecə.**
**Elə günüm olubmu ki,**
**Sənsiz gələ, sənsiz keçə?**

Xəlil Rza Ulutürk məhəbbət seçimində səhv etməmişdi. Onun xanımı "üçüncü minilliyin birinci şairi"nə-demokrat şair Xəlil Rzaya əbədiyyət heykəli ucaltdı. Həmişə olduğu kimi böyük şairin xoşladığı yazı makinasının arxasında oturub, yadigar qalan əlyazmalarından topladığı şerləri ağ vərəqlərə köçürdü. Bu o makinadır ki, vaxtı ilə Xəlil Rza yazırdı:

**Elə bil stulda yox, şah taxtında əyləşib,**
**Makina qarşısında bir az da gözəlləşib.**
**Yaxşı misra görəndə qanadlanar, şadlanar,**





**Xəlil yaxşı yazmısan!-deyib könlü atlanar.**
**Naşı ifadə görsə, durar, çatılar qaşı,**
**- Dəyiş!-deyə əmr edər o gözəllik nəqqaşı.**

*/"Mənim gözəl katibəm"/*

Bu o makinadır ki, Xəlil Rza Ulutürkün odlu-alovlu misraları da, məhəbbət nurundan cilvələnən sətirləri də, qəlbinin xalqla bir vuran nəbzi də, bir zamanlar onun səsinə qarışıb. Onu yeni kompüterlər, "gözəl katibə"ni isə heç kim əvəz etməyib. Çünki onların hər ikisi Xəlil Rza Ulutürkün əmanətidir...

Hələ qarşıda çox illər var... Zaman yalnız gələcəyə doğru gedir. Hər şey dəyişir. "Gözəl katibə"nin qəlbindəki həsrət yükü çoxaldıqca kövrəkləşir. Bəzən xəlvətə çəkilib hönkürmək, qəlbini didib parçalayan yoxluqdan qurtarmaq istəyir. Lakin nagahani bir səs onu bu qarşısıalınmaz istəkdən çəkindirir:

**Həyatımın günəşi, Təbrizimin anası,**
**Mən yatandan sonra da çaqqıldar makinası.**
**Məndən tələb etdiyi nə "Volqa"dır, nə "Zim"dir,**
**Şərik səngərimizdə məslək mübarizimdir,**
**Kimdir gözəl katibəm? Mənim FİRƏNGİZİMDİR!**

**Mənim qoca dünyada qalan bir kamımmı var?**
**Yoldaş ölüm gəl məni istədiyin gün apar!**
**Dayan bir az tələsmə,**
**İcazə ver son günü aya, ilə döndərim.**
**Diş dırnaqla yazdığım,**
**Hər sətrini bağrımın alovuna basdığım**
**Düz iki yüz cildimi mətbəəyə göndərim!**

**Öz sağlığımda görüm qızıl külliyyatımı.**
**Ulduzlar düzümündən gözəl külliyyatımı.**
**Həyatda qoyub gedim əbədi həyatımı!**
**Ondan sonra gəl apar qupquruca adımı!**
**Bu na macal verməsən, yaxın gəlmə! Şilləmi**
**Düz alnından vuracam**
**Dünyada son namərdin izi qalıncayadək,**
**tozu qalıncayadək**
**Hər xəzinə misramın keşiyində duracam**
**Öldü yoxdur. Ölümün sinəsindən vuracam!**

*/Xəlil Rza Ulutürk/*





# Əbədiyyət heykəli




Xosrov Ruzbeh yazırdı: "İnsanı məhkum etmək olar, lakin şücaəti, mərdliyi, vətənpərvərliyi, şərəfi və fədakarlığı məhkum etmək olmaz."

Xəlil Rza Ulutürk Lefortovoda dustaq həyatı keçirməyə məhkum edilsə də, o sınmadı, şərəf və ləyaqətini qorudu. Onun misraları silaha çevrilib düşmən sinəsinə tuşlandı:

**Nə təsəlli istəyirəm nə son ümid, ürək-dirək**
**Özüm sənə təsəlliyəm, özüm sənin ürəyinəm.**

**Ləyaqətim, mətanətim, ağ başımda qızıl çələng,**
**Nə dizimdə titrəyiş var, nə gözümdə ələm ya qəm.**

**Mən onsuz da əbədiyəm, cahangirlər gəldi, gedər**
**Bir gün edam meydanında başım getsə, verərsəm can,**
**Sən yadların qarşısında heç bir zaman qara geymə,**
**Ey ağ donlu Anam mənim, ağ çələngli Azərbaycan!**

Belə güclü misraları yalnız əbədiyyət şairi Xəlil Rza Ulutürkün qələmi yaza bilərdi. Şəkər xəstəliyindən əziyyət çəksə də pəhriz saxlamaq fikrindən uzaq idi. Xəstəliyə, ölümə də meydan sulayırdı Ulutürk! Onu müayinə edən həkimi də heyrət içində qoymuşdu. Varlığı büsbütün qorxmazlıq və cəsarətdən yoğrulmuş, tunc heykələ bənzəyən, hər sözündən qığılcım saçılan Xəlil Rzadakı nikbinliyi indiyə qədər müalicə etdiyi heç bir xəstəsində görməmişdi...

Həkim ona verilən sualı da, öz cavabını da son kəlmələri də beynində götür qoy edir, düşünürdü:

- Bu xəstəliyə tutulanlardan heç sağalanı olurmu həkim?
- Mində biri-sağalır şair!
- O mində biri elə mənəm-dedi Xəlil Rza...

Özü də inanmışdı dediyinə.

**Canım həkim, gözüm həkim,**
**Düzdü sənin sözün həkim!**





**Bu dünyadan kam alanlar, qəhrəmanlar mində birdir,**
**Mərdlər, ərlər, hünərvərlər, bəxtəvərlər mində birdir.**
**Elə mənəm o mində bir.**

Çəkdiyi əzab-əziyyətlərə baxmayaraq o özünü bəxtəvərlərin mində biri hesab edirdi.

Sarsılmazlıq, inam, inad və sağlam təfəkkür Xəlil Rza Ulutürkün ən yüksək keyfiyyətləri idi.

Xəlil Rzanı poladlaşdıran cəsarətli cavabları, sözü açıq, çəkinmədən deməsi, mübarizə meydanından geri çəkilməmək bacarığı ilə seçilməsi deyildimi? Bunlarsız o, bütün dünyanın Ulutürkü olardımı? Əsla!

**Canım həkim, gözüm həkim**
**Düz söylədin,**
**bu dünyada qəhrəmanlar mində birdir.**
**El dərdini dağ çiynində daşıyanlar mində birdir.**
**Bir gün qəbrim qazılanda heyrətlənmə yansa qəbir.**
**Mində birin baş daşı da məşəllənir.**

Xəlil Rza Ulutürkün yaradıcılığının ən qaynar dövründə yazılmış bu misraların qüdrətində böyük məna çalarları vardır. O, özü də hiss etmədən ölümdən sonrakı ölümsüzlüyün sirrini açırdı. Ölümsüzlük hər ölənin nəsibi deyil. Ölümsüzlük mində birin olur, bu mində bir Xəlil Rza Ulutürkün özü idi.

Bir də etiraf edək ki, Xəlil Rza Ulutürkün yaradıcılığı həmişə çağlayıb, bəlkə də yazdığım "ən qaynar dövr" sözü özü də düzgün deyil. Xəlil Rza dünyası başdan-başa müəmmadır, sirdir. O ölümü növlərə ayıranda dünyanın nəinki insanlar üçün-həm də bütün bəşəriyyət üçün müvəqqəti olduğunu etiraf edirdi.

1990-cı ildə qələmə aldığı "Ölümlərin növləri" şeri dövrün keşməkeşindən, xalqımızın azadlıqsevər övladlarına qarşı çevrilən işıqsaçan güllələrdən yaranmışdı! Lefertova həbsxanasının darısqal kameraları onun azad dünyasına, yaradıcı təfəkkürünə sədd çəkə bilərdimi? Heç vaxt!

Od içində yanan Azərbaycan onun vətən üçün çırpınan qəlbinin bir parçası idi. Dövrün ağlasığmaz hadisələri, törədilən vəhşiliklər tarixin qan yaddaşına çevriimişdi. Hər zamanın isə öz hökmü var. Dahi söz ustadı Nizami Gəncəvinin vaxtı ilə yazdığı qızıl misralar, sanki bu dövrün xarakterini şərh etmək üçün yazılıbmış...

**Dövrə bax ki, alçalıb**
**zülmdən, şərdən bəşər.**
**Azğınlığın əlindən**
**qaçır bəşərdən bəşər**
**İnsanda nə ləyaqət, nə mərdlik qalıb indi,**
**İnsandan insanlığa namərdlik qalıb indi.**





Bəli, tarixin təkrarı olan dövrlər var. Bu cür qarmaqarışıq dövrlər, insanları xarakter etibarilə çox dəyişdirir. Xəyanətlər, cinayətlər artır. Əqidələr, məsləklər arasında mübarizələr kəskinləşir. Xəlil Rza Ulutürk hər dövrdən üzü ağ çıxması, bəşər qarşısında alnı açıq, üzü ağ olması ilə fəxr edir:

**Mən öləcəm ah çəkmədən, uf demədən.**
**Axırıncı şüasını saçıb gədən çıraq kibi.**
**Sal qayanı yarıb gələn**
**Lap sonuncu damlasını bizə verən bulaq kibi.**
**Yandırılıb külə dönən,**
**Yaddaşlarda bənövşəyə, gülə dönən bayraq kibi.**

O, ölüm adlı müdhiş bir yoxluğun labüd olması qənaətinə gəlir. Kiminin şöhrət ölüsü kimi, kiminin sərvət ölüsü kimi bu dünyadan ölüb gedəcəyini qeyd edir. Son nəticə isə şairin söz deyimində daha qüdrətli səslənir:

***Əbədiyyətlər qarşısında bu ölümlər bircə andır,***
***Ölməz yalnız yaradandır, yaşadandır.***

Xəlil Rza Ulutürkə - ölməzlik zirvəsinə ucalan bir şairə "vəfat etmişdir" sözünü yaza bilməyən qələmim ixtiyarsız olaraq sonda bu sətirləri yazdı:

**Oxucum çox çətindir, bu ölümdən mən yazam.**
**Xəlil Rza ölməyib! Ölməyəcək heç zaman.**
**Şimşək kimi çaxıb o! Yenə bir gün çaxacaq!**
**Neçə Xəlil Rzalar yenidən doğulacaq.**
**Qandan qana keçəcək mübarizə intiqam,**
**Bunu yadda saxlasın hər məsləksiz, unutqan.**
**Xəlil Rza ölməyib! Durur ciyərparası**
**Qürurlu Firəngizi, cəsur Rza balası!**

Xəlil Rza Ulutürk sağlığında ikən özünə əbədiyyət heykəli ucaltdı. Xalqın yaddaşına köçən alovlu misraları dillər əzbəri, cəsarət qalxanı, mübarizə silahı oldu. Bu cür "silahlanıb", "döyüşmək" çox çətin olsa da o, həqiqətin, ədalətin qalib gələcəyinə inanaraq söz səngərindən bir addım belə olsun çəkilmədi, dövrlə, zamanla döyüşdü.

Öz sözləri ilə desək elə o bu mətinliyinə, mübarizliyinə görə "üçüncü minilliyin birinci şairi" oldu.







# Qeyd üçün



# Qeyd üçün





# Qeyd üçün

# Qeyd üçün





# Qeyd üçün

# Mündəricat

*Ön söz......................................8*
*Bir məhəbbət tarixçəsi...........................12*
*Görüş üçün bəhanə...............................19*
*Qoy sənə doğulan günəş deyim ki... ..............25*
*Xəlil Rza Ulutürk ocağının hərarəti, dəyanəti.......33*
*Firəngiz xanım Ulutürk...........................34*
*Təbriz Xəlilbəyli..................................36*
*Rza Xəlilbəyli.....................................37*
*Üçüncü minilliyin birinci şairi......................38*
*Türkçülük məfkurəsi: Milli "mən" fəlsəfəsi dilçilik haqqında... ........................................40*
*Xəlil Rza poeziyasında mənəvi həyəcanla poetik düşüncənin konsentrasiyası.......................55*
*Fəlsəfi düşüncələr labirintində dolaşan "Sorğular", cavablar... ..........................................66*
*Misralar dalğalanan bayrağımız...................75*
*Məhəbbət fəlsəfəsindən qopan qığılcımlar.........80*
*Əbədiyyət heykəli................................89*
*Qeyd üçün.........................................95*

**Bədii redaktor:** Akif Şahverdiyev
**Texniki redaktor:** Emin Salmanoğlu

Hazır depozitlərdən çap olunmuşdur.

Yığılmağa verilib: 25.11.2002. Çapa imzalanıb: 26.12.2002.
Format 84x108 1/16 F.ç.v.6,25. Kağız əla növ. Sayı 1000 nüsxə. Sifariş № 93 Qiyməti müqavilə ilə